بسم الله الر حمن الر حيم

# CAMAAT NAMAZININ FƏZİLƏT VƏ SAVABI

ABBAS ƏZİZİ

Kitabın adı:.......Camaat namazının fəzilət və savabı
Müəllif....................................................... Abbas Əzizi
Mütərcim..........................................Tərlan Seyfullayev
Naşir.........................................................“Əsre rəhayi”
Redaktor:..............................................Qaraş Elxanoğlu
Tarix..............................................................2007, Bahar
Tiraj.....................................................................5000
Çap növbəsi.......................................................Birinci
ISBN…..................................................978-964-2760-08-4

# *1-Cİ HİSSƏ*

# *CAMAAT NAMAZININ FƏZİLƏT VƏ SAVABI*

# *I-ci FƏSİL*

### *CAMAAT NAMAZI İLAHİ KƏLAMDA*

1. Allahın camaat namazına diqqəti; “Namaz qılın, Zəkat verin, ruku edənlərlə birlikdə ruku edin (namazı camaatla qılın)”.

### *MÜHÜM NÖQTƏLƏR*

-1. Namazın əsl hökmü camaatladır, dinin əsası ictimaiyyətdir və camaatdan uzaq düşmək din tərəfindən bəyənilməyib.

2. Allahın də`vəti namaz qılmaq, zəkat verib camaat namazında iştirak etməkdir.

3. Namaz qılın deyəndən sonra ikinci dəfə ruku edənlərlə ruku etməyə əmr edir ki, bu da camaat namazının əhəmiyyətini bildirir.

4. Ruku camaat namazının mühüm hissələrindən biridir. Çünki camaat namazı ruku ilə izah olunub.

5. Rəsulallah (c) və Əli ibn Əbu Talib (ə) ruku edənlərin nümunələrindəndir.

6. Namaz qılın! Yə`ni özünüz tək namaz qılmayın. Elə edin ki, namaz insanların arasında nur saçsın. İnsanlar da eşq və həvəslə ona tərəf gəlsinlər.

7. Təfsirçilərdən bə`ziləri belə deyiblər: “Namaz qılın” ifadəsi buna işarədir ki, sizin namazınız təkcə zikr və dua olmasın, onu kamil şəkildə

oxuyun. Onun ən gözəl rüknü qəlbin diqqətli və Allah qarşısında hazır olmasındadır. Namazın tə`siri insanın ruhunda və canındadır.

Ayədə bir neçə nöqtəyə işarə olunub:

1. Əvvəl insanın Allaha qovuşması (namaz qılın);

2. Sonra insanlara qovuşmaq (zəkat verin);

3. Nəticədə insanların Allah yolunda bir-birlərinə qovuşması;

4. Allahın əmri cəm olmaq və bəndələrin birlikdə ibadət etməsinədir.

5. Camaat namazının insanın inkişaf və ali məqamlara çatmasında məxsus tə`siri var.

2. Ruku edənlərin xüsusiyyətləri:

“Ey Məryəm! (bu ne`mətin şükrü üçün) öz Allahına itaət və səcdə et və ruku edənlərlə birlikdə ruku et.”

“Ali İmran” surəsi, ayə 43.

***MÜHÜM NÖQTƏLƏR***

1. Seçilmiş insanların təvazö və ibadətləri gərək çox olsun. Allahın övliyaları üçün məxsus ibadət sifariş olunub. Necə ki İslam peyğəmbəri üçün gecə namazı vacib idi.

2. Namaz, ruku və səcdə ən yaxşı təşəkkürdür.

3. Həzrət Məryəmin Allahın qarşısında itaət, səcdə və ruku etməsinə qərar verilib.

4. Mələklərin Həzrət Məryəmlə söhbətləri və

fərmanları,onun pak itaət etməyi barəsindədir.

5. Qadınların camaat namazında iştirak etmələri sifariş olunub.

6.Allahın rububiyyəti.

7. Namaz o, zamanlarda da ruku və səcdəyləmiş.

8. Həzrət Məryəmin namaz qılanlarla birgə namaz qılmasına(camaat namazı) qərar verilib.

9. Qadınların ictimai ibadətlərdə hazır olmaları sifariş olunub.

10. Birlikdə ibadət etmək və camaat namazı keçmiş zamanlarda da olub.

11. Birlikdə ibadət etməyin əhəmiyyəti və tə`siri insanın inkişaf və ali dərəcəyə çatması üçündür. Belə nəzərə çarpır ki, Allahın əmri həzrət Məryəmə onun ali dərəcəyə çatması üçündür.

12. Allahın seçdiklərinin cəmiyyətdə olmaları lazımdır.

13. Allahın əmri bəndələrin vəhdət və birliyinə ibadətin şüası altındadır.

14. Qadınların camaat namazında kişilərlə birlikdə namaz qılmasının icazəli olduğuna işarə edən ayələr var (əlbətdə məxsus şəraiti var). Yuxarıdakı qeyd olunmuş ayədə həzrət Məryəmə əmr olunmamamışdı ruku et yalnız ruku edən qadınlarla. Belə buyurulmuşdur ki, ruku et ruku edənlərlə. (İstər qadın olsun, istər kişi).

15. Camaat namazında, ruku mühüm rol oynayır çünki camaat namazı ruku ilə tə`bir olunub, onun xas əhəmiyyəti məlum edilir.

16. Allah üç ne`məti həzrət Məryəm üçün qiymətli saydı-seçdi, pak və başqalarından üstün qərar verdi. Bu üç ne`mətin qarşısında üç məs`uliyyət istədi: Qunut, Səcdə və Ruku. Belə görünür ki, üç ne`mətin hər biri bir məs`uliyyət qarşısındadır.

# *II-ci FƏSİL*

## *CAMAAT NAMAZININ ƏHƏMİYYƏTİ*

3. Cəbrayılın arzusu:

Peyğəmbər Əkrəm (c) buyurdu: "Yeddi əməli yerinə yetirmək üçün Cəbrayıl arzu etdi ki, kaş oda Adəm övladlarından olaydı. O əməllərdən biri camaat namazı qılmaqdır."

4. Camaat namazına eşq bəsləmək:

Rəbi ibn Xeysəm fələc xəstəliyinə tutulmasına baxmayaraq, camaat namazından qalmırdı. Hər gün onun əlindən tuturdular və o, ayaqlarını sürüyə-sürüyə özünü camaat namazına çatdırırdı. Bir nəfər ona dedi: "Əgər evdə namaz qılsan sənin üçün daha yaxşı olar. Bu qədər çətinlik çəkməzsən". Rəbi dedi: "Gedəndə əziyyət olmasına baxmayaraq,

hər kəs “Həyyə ələs-səlah” kəlməsini eşitdikdə onu qəbul etməlidir”.

5. Azan deyənə cavab vermək.

Allahın rəsulu, (c) buyurdu: Elə ki, müəzzin “Əşhədu ənla ilahə illəllah”, deyir Allah-taala buyurur: “Ey Məhəmmədin ümməti harda olsanız bir neçə camaat namazına məşğul olun”.

6. Loğmanın sifarişi:

Loğman övladına dedi: “Oğlum! Əgər nizənin üstündə də olsa belə namazı camaatla qıl!”

7. Birinci camaat namazı:

İmam Sadiq (ə) buyurdu: “Birinci camaat namazı ki, əda olundu. Həmin gün idi ki, həzrət peyğəmbər (c) namaz qılırdı və Əli ibn Əbu Talib əmirəlmö`minin (ə) onunla bir yerdə idi.

8. Təklik camaatdır:

Həsən Siqəl Əbu Əbdullah İmam Sadiqdən (ə) camaatın ən az sayı barədə soruşdu. İmam buyurdu: “Bir kişi bir qadın və əgər heç kəs belə məsciddə olmasa belə mö`min təkcə camaatdır. Çünki azan və iqaməni deyəndə iki cərgə mələk onun arxasında namaza durur. Və əgər tək iqamə desə, bir cərgə mələk ona iqtida edir.”

Həmçinin Allahın peyğəmbəri buyurmuşdur: “Mö`min təklikdə höccət və camaatdır.”

9. Namazı camaata görə təxirə salmaq:

Cəmil ibn Saleh imam Sadiqdən (ə) sual etdi: “Bunlardan hansı daha fəzilətlidir?”

İnsanın namazını vaxtında qılması, yoxsa əgər məscidin imamı varsa, məscid əhli ilə birlikdə camaat namazı qılmaq üçün namazını bir qədər tə`xirə salması?

Həzrət buyurdu: “Namazı tə`xirə salsın məscid əhli ilə namaz qılsın. Əgər məscidin imam camaatı varsa.

10. Əsasından tutan olmayan kor:

Həzrət İmam Sadiq (ə) buyurdu: “İslam peyğəmbəri istədi ki, namazlarını evdə qılıb və camaat namazına gəlməyən qövmün evlərinə od vursunlar. Bu vaxt bir kor kişi həzrətin yanına gəlib dedi: “Ya rəsulallah, mənim gözlərim görmür, amma məscidin azanını eşidirəm, əsamdan tutan yoxdu ki, məni camaat namazına gətirsin.” Həzrət buyurdu: “Evindən məscidə qədər ip bağla (əsandan tutan olmayanda). O, ipdən tut və özünü namaza çatdır.”

11. Müşk iyi camaat namazında:

Böyük alim hacı şeyx Məhəmməd Baqir buyurdu: Mənim adətim idi ki, həmişə camaat namazından sonra sağımda və solumda oturanla görüşürdüm. Bir gün Samirədə camaat namazından sonra, elm əhlindən olan mərhum Mirzayi Şirazi (Allah məqamını uca etsin) mənim sağ tərəfimdə oturmuşdu

ki, onunla görüşdüm. Və bir nəfər kəndli ki, sol tərəfimdə idi, nəzərimə kiçik gəldiyi üçün onunla görüşmədim. Bundan peşiman oldum və tez öz-özümə dedim ki, ola bilsin mənim nəzərimə kiçik olan bir şəxs, Allah yanında ehtiramlı və əziz olsun. Tez onunlada ədəblə görüşdüm. Elə bu vaxt qəribə müşk iyi hiss etdim, amma elə bil dünya müşklərindən deyildi. Çox sevindim və ehtiyatla ondan soruşdum ki, müşk varınızdı? Dedi: "Yox mənim heç vaxt müşküm olmayıb." Yəqin etdim, bu iy ruhani və mə`nəvi iylərdən, özü isə məqamı olan ruhani bir şəxsdir. O, gündən əhd etdim ki, heç vaxt mö`minə kiçik gözlə baxmayam.

12. Çətin halda camaat namazı:

Peyğəmbəri Əkrəm (c) can verən halda idi. Mədinənin müəzzini Bilalın səsi eşidildi. Sübh azanı Mədinədə başlandı. Allahın rəsulu (c) qalxıb dəstəmaz aldı. Bir əlini həzrət Əlinin (ə) və o biri əlini Fəzl ibni Abbasın çiyninə qoyub çox çətinliklə məscidə gəldi. Sübh namazını camaatla birlikdə qılıb evə döndülər.

13. Camaat namazına tələsmək:

Müsəlmanlardan bir nəfər tələsik halda peyğəmbərin məscidinə tərəf gəldi ki O, həzrətin camaat namazında iştirak etsin. O, məscidə çatan vaxt gördü ki, artıq camaat məsciddən çıxır. O bir nəfərdən

soruşdu: “Niyə məsciddən çıxırsınız?” Dedilər ki, namaz qurtarıb. Gecikən kişi dərindən ah çəkib əfsuslandı ki, niyə camaat namazına çata bilmədi. Müsəlmanlardan bir kişi ona dedi: “Sən o yanıqlı ahı mənə bağışla və mən camaat namazımı sənə verim.” Gecikən kişi razılaşdı. (burada gecikən kişi öz ahına qürurlanmadı) Həmin gecə yuxuda gördü ki, bir nəfər ona deyir: “Xoş sənin ruhani halına ki, yanıqlı ahı verib, həyat suyu və şəfa tapdın. Ahın müqabilində başqa şəxsdən alınan namaz məsciddə olanların namazından tez Allah yanında qəbul olundu.

14. Həzrət Məhdi (əc) imaməti ilə camaat namazı:

Həzrət İsa (ə) həzrət Məhdi (əc) tərəfdarlarına qoşulandan sonra, Həzrət Məhdi (əc) O, həzrətə deyəcək: “Qabağa dur və camaat ilə namaz qıl!” (yəni imam camaat ol). Amma həzrət İsa (ə)deyəcək: “Namaz sənin üçün iqamə olub.” Buna görə həzrət Məhdinin (əc) arxasında dayanıb namaz qılıb və ondan bey`ət edəcək.

## *CAMAAT NAMAZININ FƏLSƏFƏSİ*

Əbu Əli Sina tanınmış arif Əbu Səid Əbul Xeyr üçün namə yazdı ki, nəyə lazımdır camaat hamısı məscidə yığılsın. Bir halda ki Allah insanın boyun damarından ona yaxındır, onda harda olursan ol, əgər

Allah ilə rabitəni yaratdınsa, nəticə alacaqsan.

Əbu Səid Əbu Əli Sinanın məktubunun cavabını yazdı və o, məktubda belə bir misal çəkmişdi: “Əgər bir neçə çıraq qapısı bağlı bir otaqda olarsa, çıraqlardan biri söndüyü halda digərləri işıqlı olacaq. Amma otaqda yalnız bir çıraq olub söndüyü halda otaq qaranlıqlaşacaq. İnsanlar da belədirlər: bə`ziləri günahkardırlar, əgər tək olsalar bəlkədə Allahın feyz və nurunun bərəkətini dərk etməyə müvəffəq olmasınlar. Amma camaatla olsalar bəlkə də bə`zi şəxslərinin bərəkətinə görə onlarada öz feyz və bərəkətindən nəsib edər.

# III-cü FƏSİL

### *CAMAAT NAMAZININ SAVABI*

15. Namaz camaat namazının surətində:

İmam Rza (ə) buyurur: “Namaz camaat ilə daha da fəzilətlidir.”

16. Camaat namazı əfzəldir:

Məhəmməd ibni İmarə deyir: “İmam Rzadan (ə) sual etdim ki, bir şəxsin namazı təklikdə Kufə məscidində qılmasının fəziləti çoxdur, ya camaat namazında iştirak etməsinin? Həzrət buyurdu: Camaat namazı fəzilətlidir.”

17. Camaat namazının fəziləti:

Həzrət Rəsul (c) buyurur: Camaatla qılınan namaz təklikdə qılınan 25 namazdan üstün və fəzilətlidir.”

18. Yetmiş min mələk:

Rəsuli Əkrəm (c) buyurdu: “Hər kəs öz ayağı ilə camaat namazına görə məscidə tərəf gedə, hər addım götürüb-qoyduqca əməl dəftərinə min savab yazırlar. Və yetmiş min dərəcə onun üçün əta edirlər. Əgər bu ölənə qədər davam etsə, qəbrə görüşünə gedib təklikdə həmdəm olmaq və bağışlanmasını tələb etmək üçün Haqq təala yetmiş min mələyi ona müvəkkil edər.”

19. İki rəkət camaat namazının savabı:

İmam Sadiq (ə) buyurdu: “Camaat namazının fəziləti tək qılınan namalza müqayisədə 23 dərəcə və 25 namaz hesab olur.”

20. Camaat namazında bir təkbiri dərk etmək:

Peyğəmbəri Əkrəm (c) buyurdu: “Cəbrayıl (ə) mənim yanıma gəlib dedi: “Ey Məhəmməd! Bir təkbiri ki, mö`min camaat namazında dərk edə, onun üçün yetmiş həcc və min müstəhəbb ümrədən yaxşıdır.”

21. Bir rəkətin fəziləti:

İmam Rza(ə) buyurur: “Camaat namazının fəziləti təklikdə qılınan namazla müqayisədə hər bir rəkət iki min rəkətə bərabərdir.”

22. Çoxlu savab:

İslam Peyğəmbəri (c) buyurdu: “Cəbrayıl yetmiş min mələklə zöhr namazından sonra təşrif gətirib bildirdi: Ey Məhəmməd(s)! Allah sənin üçün salam və iki hədiyyə göndərib ki, indiyə qədər heç bir peyğəmbərə göndərməyib.” Həzrət buyurdu: “O, iki hədiyyə nədir?” Cəbrayıl ərz etdi: 1. Üç rəkət vitr namazı (iki rəkət şəf`, bir rəkət vitr gecə namazının nafilələrindən);

2. Camaat namazıyla beş vaxtın namazı;

Həzrət (c) sual etdi: Ey Cəbrayıl! Camaat namazının mənim ümmətim üçün nə faydası var? Cəbrayıl ərz etdi: “Ey Məhəmməd(c)! O, vaxt ki, camaat namazında iki nəfər olur, Allah-təala hər bir şəxs üçün hər rəkətdə 150 namaz yazır. O vaxt ki, camaat namazında üç nəfər olur, Allah-təala hər bir nəfər üçün hər rəkətdə 600 namaz yazır. O, vaxt ki, camaat namazında dörd nəfər olur, Allah-təala hər bir nəfər üçün hər rəkətdə 1200 namaz yazır. O vaxt ki, camaat namazında beş nəfər olur, Allah-təala hər bir nəfər üçün hər rəkətdə 2400 namaz yazır. O vaxt ki, camaat namazında altı nəfər olur, Allah-təala hər bir nəfər üçün hər rəkətdə 4800 namaz yazır. O vaxt ki, camaat namazında yeddi nəfər olur Allah-təala hər bir nəfər üçün hər rəkətdə 9600 namaz yazır. O vaxt ki, camaat namazında səkkiz nəfər olur Allah-təala hər bir nəfər üçün hər rəkətdə on doqquz min iki yüz

namaz yazır. O vaxt ki, doqquz nəfər olur, Allah-təala hər bir nəfər üçün hər rəkətdə otuz altı min dörd yüz namaz yazır. O zaman ki, on nəfər olur Allah-təala hər bir nəfər üçün hər rəkətdə yetmiş iki min səkkiz yüz namaz yazır. Camaat namazında iştirak edənlərin sayı on nəfərdən çox olduqda əgər asiman səhifə və kağız, ağaclar qələm, cinlər, insanlar və mələklər isə yazan olsalar, yenədə bir rəkətin savabını yazmağa qadir deyillər.

Ey Məhəmməd(c)! Camaat namazının birinci təkbirini dərk etmək altı yüz min həcc və ümrədən, yetmiş min dəfə dünya və o, şeylər ki, yer üzündə var ondan və bir rəkət namazı imam camaatın arxasında camaatla qılmaq miskinə verilən yüz min dinar sədəqədən yaxşıdır. Və camaat namazında mö`minin bir səcdəsi yüz qul azad etməkdəndə üstündür.

23. İxlaslı insan Mühəddis Qumi:

Görkəmli alimlərdən biri belə nəql edir: “Mərhum Məhəmməd Ağa Hacı Şeyx Abbas Qumini (“Məfatihul-cinan” kitabının müəllifi) Məşhədə də`vət etmişdilər. O, orda mənbərə gedib bir neçə gün Gövhər Şad məscidində camaat namazı qılırdı. Çoxları Məşhəd əhlindən və zəvvarlardan çoxu onun camaat namazında iştirak edirdilər. O, bir gecə Məğrib namazını qılıb İşa namazını camaatla qılmayıb getdi.

Ondan soruşdular ki, niyə İşa namazın qılmadın? Dedi: “Məğrib namazını qılan vaxt mükəbbirin səsini uzaqdan eşitdim ki, mənim namazımın təkbirini deyir. Hiss etdim ki,, camaat çoxdu. Azacıq qürur qəlbimə yol tapdı. İşa namazını bu halda qılmağım düz deyildi və buna görə camaat namazını tərk edəməyi qərara aldım”.

24. Camaat namazının fəziləti:

İslam peyğəmbəri (c) buyurmuşdur: “İnsanın camaatla namaz qılması qırx il evdə qılınan namazdan yaxşıdır. Soruşdlar ki, ya rəsulallah, bir gününmü namazı? Həzrət (c) buyurdu: Bəlkə də bir namaz.”

25. Camaat namazı və ayətullah Xansari:

Mərhum ayətullah seyid Həsən Xansari heç vaxt gecə namazını, ziyarət aşuranı və camaat namazını tərk etmədi. Məscidə getməyən vaxt evdə ailəsi ilə birlikdə camaat namazı qılırdı. Çox insaflıydı və hamı ilə xoş rəftar edərdi. Müsəlmanların işlərinin islahı üçün qəribə diqqəti var idi. Xansar şəhərinin hakimiminin göstərişi ilə məxsus onun üçün Came məscidi tikdilər ki, həmişə cümə və camaat namazı o məsciddə qılınırdı.

## *IV-cü FƏSİL*

## *SÜBH VƏ İŞA CAMAAT NAMAZLARI*

26. Bütün gecənin ibadətindən üstün:

Həzrət rəsulullah (c) buyurdu: “Sübh namazını camaatla qılmağım mənim nəzərimə gecəni sübhə qədər ibadət etməkdən daha üstündür.”

27. Sübh camaat namazı:

Rəsulullahın (c) zamanı idi. Təzə İslam höküməti Mədinədə fəaliyyətə başlamışdı. İmam Baqirin (ə) nəqlinə əsasən bir gecə Əmirəlmö`minin Əli (ə) gecənin əvvəlindən namaz qılmağa durur. Eləki, sübh oldu həzrət həmişəki kimi məscidə gedib peyğəmbərin (c) camaat namazında iştirak etmək istəyir. Amma gecənin yuxusuzluğuna görə sübh namazını evdə qılır və namazdan sonra yuxu onu tutur. Peyğəmbər (c) o sübh Əlini (ə) məsciddə görmədiyi üçün namazdan sonra həzrət Fatimənin (s) yanına gəlir. Fatimə (c) bütün hadisəni peyğəmbərə deyir. Peyğəmbər (c) buyurdu: “O, hədiyyə ki, Sübh camaat namazına xatir ona veriləcəkdi, əlindən çıxdı və o hədiyyə gecə qıldığı bütün namazlardan üstündür.” Əli (ə) Peyğəmbərin səsini eşidən kimi yuxudan ayıldı Peyğəmbər (c) həzrət Əliyə (ə) buyurdu: “Bir şəxs ki, Sübh namazını camaatla qıla, elə bil bütün gecəni ruku və səcdə halında keçirmişdir.”

28. Həzrət Peyğəmbərin (c) sualı:

Həzrət İmam Sadiq (ə) buyurdu: "Peyğəmbər (c) bir gün sübh namazını qılandan sonra məsciddə üzünü əshaba tutub bir neçə adamın adlarını bir-bir çəkə-çəkə onların namazda olub-olmadıqları barəsində soruşdu. Əshab ərz etdi ki, ya rəsulallah olmayıblar. Həzrət təəccüblə soruşdu: "aya qaibdirlər." Sonra dedi: "Düzü, heç bir namaz münafiqlər üçün Sübh və İşa namazından çətin deyil."

29. Camaat namazının savabı:

İslam peyğəmbəri (c) Osman ibni Məz`una dedi: "Hər kəs Sübh namazını camaatla qıla və namazdan sonra günəşin nuru saçana qədər zikr deyə ona Firdovs behiştində yetmiş mərtəbəli meydan verilər. Hər məqamın ərazisi 70 il sürətli atın qaçışı qədərdir. Hər kəs Zöhr namazını camaatla qılsa, onun üçün Ədn cənnətində bir yer verilər ki, 50 məqamı vardır. Hər məqamın ərazisi 50 il sürətli atın qaçışı qədərdir və hər kəs Əsr namazını camaatla qılsa, ona həzrət İsmail (ə) övladlarından səkkiz nəfəri azad etməyin savabı verilər ki, onların hər biri ailə sahibidirlər. Hər kəs İşa namazını camaatla qılsa, Qədr gecəsinin savabını ona hədiyyə edərlər.

# *V-ci FƏSİL*

## *CAMAAT NAMAZININ ƏSƏRLƏRİ*

30. Behiştə daxil olmağa səbəb olur:

İmam Sadiq (ə) buyurub: “Hər kəs qırx gün imam camaatın sağ tərəfində namaz qılsa behiştə daxil olacaq.”

31. Namaz qılanlara xoş gümanlı olmaq:

İmam Sadiq (ə) buyurur: “Hər kəs gündəlik beş namazını camaatla qılsa, ona qarşı xoş güman olun və onun şəhadətini qəbul edin.”

32. Camaat namazında ardıcıl iştirak etmək:

Peyğəmbər (c) buyurur: “Hər kəs camaat namazında ardıcıl iştirak etsə, onun qeybəti müsəlmanlara haram və ədaləti isə sabit olur.”

33. Camaat namazının bərəkəti:

Rəsulallah (c) buyurdu: “Hər kəs gündəlik beş namazını camaatla qılsa Allah beş şeyi ona inaət edər:

1. Kasıblığı ondan uzaqlaşdırar. 2. Qəbr sıxıntısını ondan götürər. 3. Qiyamət günü əməl dəftərini onun sağ əlinə verərlər. 4. Sirat körpüsündən ildırım kimi keçər. 5. Sorğu-sualsız behiştə daxil olar.”

34. Cəhənnəm və nifaq odundan bəraət:

Həzrət rəsulallah (c) buyurur: Bir şəxs öz namazını birinci təkbirdən camaatla qıla, qırx gün müddətində Allah ona iki bəraət verər. 1. Cəhənnəm odundan. 2. Nifaqdan

35. Camaat namazının intizarında olmaq günahların kəffarəsidir:

Peyğəmbər (c) buyurdu: “Camaat namazının intizarında olmaq digər camaat namazına qədər olan günahların kəffarəsidir.”

36. Hər addıma bir savab:

Rəsuli Əkrəm (c) buyurdu: “Hər şəxs kamil və düzgün dəstəmaz alıb camaat namazına gedərsə Allah-təala hər bir addımına bir savab yazar və onun bir günahını bağışlayar.”

37. Camaat namazına diqqətli olmaq:

Rəsulallah (c) buyurdu: “Hər kəs camaat namazında iştirak etməkdə diqqətli olsa, İslamda əvvəl olan adamlarla birlikdə ildırım sür`əti ilə Sirat körpüsündən keçəcək. Üzü on dörd gecəlik aydan işıqlı olacaq. Hər gecə və gündüz camaat namazında diqqətli oluna əvəzində şəhidin savabı var.

38. Allahın sevimlisi:

Rəsuli əkrəm (c) buyurdu: “Cəbrayıl və 70 min mələk mənim yanıma gəlib dedilər: “Ey Məhəmməd! Hər kəs camaat namazını sevsə, Allah və mələklərdə onu sevərlər.”

39. Məqamın ucalması:

Peyğəmbər (c), Əliyə (ə) bir neçə şey barəsində vəsiyyət etdi: “Ya Əli (ə), üç şey insanın məqamının ucalmasına səbəb olur. 1.Soyuq havada kamil

dəstəmaz almaq; 2.Hər namazdan sonra başqa namazın intizarında olmaq; 3.Gecə və gündüz camaat namazına getmək."

40. Qiyamətdə nuraniyyət.

Qiyamət günündə bir dəstə məhşur olacaq ki, onların üzləri ulduz kimi nur saçacaq. Müqərrəb mələklər onlardan soruşacaqlar: "Sizin əməlləriniz nə idi ki, üzünüz bu qədər nuranidir? Deyəcəklər "Biz o şəxslərik ki, azanın səsini eşidən kimi bütün işlərimizi dayandırıb dəstəmaz alırdıq."

Üzləri ay kimi işıq saçan digər məhşur dəstə bunlar mələklərin sualından sonra deyərlər: biz o, şəxslərik ki, azanın səsini eşidəndən sonra dəstəmaz alardıq; Sonra başqa bir dəstədə məhşur olacaq ki, onların üzləri günəş kimi nur saçacaq və bunlar sualdan sonra deyəcəklər: Biz o kəslərik ki, azanın səsini eşidəndən sonra dəstəmaz alırdıq cərgədə dayanıb camaat namazının intizarında olurduq.

41. Uca məqama çatmaq:

Şəhid Dəstğeyb (rəhmətullah) "Qiyamət və Qur`an" kitabında yazır: Dahi insanlardan biri belə söyləyir: Yuxuda gördüm bir sultan böyük qəsrdə taxtın üstündə oturub (o dünyada) fikrləşdim ki, yə`qin peyğəmbərlərdən biridir. Gedib salam verdim və soruşdum ki, sən kimsən? Dedi: "Mən hanbal idim. Dedim necə oldu ki, bu dərəcəyə çatdın? Dedi:

“İki əməlin vasitəsi, biri oruc tutmaq və digəri camaat namazını tərk etməməyim ilə bu dərəcəyə çatmışam.”

42. Allahın rizayəti.

Həzrət rəsulullah (c) buyurur:

“Üç dəstə var ki, Allah onlardan xoşhaldır. 1. O şəxslər ki, gecə namazı qılır 2. Camaat namazı təşkil edənlər 3. O dəstə ki, Allah yolunda düşmənlərin qarşısında dayanırlar.”

43. Qiyamət günündə çətinliklərdən nicat tapmaq:

Həzrət rəsulallah (c) buyurur: “Allah qiyamət günündə bütün insanları hesab üçün cəm edəcək. O mö`min ki, camaat namazında iştirak edib, Allah qiyamət günündə çətinlikləri onun üçün asan edəcək, sonra göstəriş verəcək ki, onu behiştə daxil etsinlər.”

44. Siratdan keçmək:

Həzrət rəsulallah buyurur: “O kəs ki, ardıcıl camaat namazında iştirak edir behiştin birinci dəstəsi ilə birlikdə ildırım kimi Sirat körpüsündən keçəcək.”

45. Qırx günlük camaat namazının səmərəsi:

Bir şəxs ki, 40 gün öz namazlarını camaat ilə qıla bu şəkildə ki, hətt bir təkbirətul ehram da ondan naqis olmaya, onun üçün cəhənnəm odundan və nifaqdan azadlıq yazılır.

46. Duanın qəbul olması:

Həzrət rəsulallah (c) buyurur: Bəndə namazını camaatla qılanda Allah ondan həya edir və ondan

hacət istəyən vaxt Allah da onun hacətini yerinə yetirir.”

47. Şəfaət edən üç dəstə:

Həzrət peyğəmbər (c) buyurur: “Allah üç dəstəyə sorğu sualsız behiştə daxil olmağa və`də verib. Bu üç dəstənin hər bir nəfəri (qiyamət günündə) həştad min nəfərə şəfaət edə biləcəklər. Üç dəstə bunlardır: 1. Müəzzin; 2. İmam camaat; 3. Dəstəmaz alıb, məscidə daxil olub camaat namazı qılanlar.

48. Birinci təkbirin tə`siri:

Həzrət rəsulallah (c) buyurur: “Gündəlik beş namazın birinci təkbirini qırx gün camaatla dərk edənə. Cəhənnəm və nifaq odundan nicat yazılır.”

49. Behiştə daxil olmağa səbəb:

Həzrət rəsulallah (c) buyurur: Camaat namazına görə addım atan mö`minə Allah-təala Qiyamət günün qorxusunu və çətinliyini asan edər və sonra ona əmr edər ki, behiştə daxil olsun.”

50. Məscidin qonşusuna xəbərdarlıq:

Həzrət rəsulallah (c) buyurur: “Evdən çıxarkən təharətli olun! Müsəlmanlarla camaat namazında iştirak edin və namazın intizarını çəkin! Belə olduqda, mələklər sizə dua edər ki, İlahi onu bağışla, ona rəhm et.

51. Məscidə tərəf hərəkətin savabı:

Həzrət rəsulallah (c) buyurur: “Camaat namazında iştirak etmək üçün məscidə tərəf addım atan hər kəsə Allah-təala hər bir addımın qarşısında yetmiş min savab hədiyyə verər və o qədər məqamını ucaldar ki, əgər bu halda dünyadan getsə, Allah-təala yetmiş min mələyi mə`mur edər ki, qəbrə onun görüşünə getsinlər, ona müjdə versinlər, təklikdə ona həmdəm olub qiyamət gününə qədər bağışlanmasını tələb etsinlər.

52. Günahın məhv olması:

İmam Musa ibn Cəfər (ə) atasından nəql etdi: “O şəxs ki, evində dəstəmaz ala, saçlarını darayıb ətirlənə, sonra aram və vüqarla evindən xaric olub müsəlmanlarla namaz qılmağa görə namaz qılınan tərəfə gedə, hər qədəm götürüb-qoyduqca onun üçün bir savab yazılır, bir günahı məhv olır və bir dərəcə Allaha yaxınlaşır məscidə daxil olana qədər. Elə ki, məscidə daxil olub namazı imam camaatla başladı imam camaat namazın salamını deməmişdən öncə Allah tərəfdən ona bağışlanmaq və beheşt vacib olur.”

53. Camaat namazının səbəbi:

İxlas, yeganəlik, İslam və ibadət Allah üçün aşkar olsun deyə, camaat namazı qərar verilib.

# VI-cı FƏSİL

## *CAMAAT NAMAZI MƏSCİDDƏ*

54. Məscidin qonşuları:

Həzrət imam Sadiq (ə) atasından nəql edir ki, Peyğəmbər məscidin qonşuları camaat namazına hazır olmaları barədə şərtləşir və buyurur: “Namaza gəlməyənlər gərək bu işdən əl götürsünlər və namazlarda hazır olsunlar. Əgər bu cür olmasa, müəzzinə deyərik azan-iqamə desin və mənim əhli-beytimdən olan Əliyə (ə) odun cəm edib camaat namazında boyun qaçıranların evlərinə od vurmasını əmr edərəm.

55. Namazın azanınna ləbbeyk demək:

Namazın azanın eşitdin hər nə qədər mümkündürsə, tez sürünə-sürünə olsa da özünü məscidə yetir.

56. Hansı namaz yaxşıdır?

Bir kişi imam Sadiqdən (ə) sual etdi: “Məscid mənim qonşuluğumdadır. Evimdə namazı (müstəhəbbləri ilə) uzun qılsam yaxşıdı, ya məsciddə camaatla (müxtəsər) qılsam? İmam cavabında yazdı: Namazı camaatla qıl təklikdə uzun qılınan namazdan uzaq ol!”

57. Məscidə tərəf qədəm qoymaq:

Rəsuli Əkrəm (c) buyurdu: "Məscidə tərəf camaat namazında iştirak etmək üçün hər kəs addım atsa hər qədəminə yetmiş min savab yazılır, məqamı ucalır. Əgər o halda ölərsə, qəbirdə onunla bir yerdə olmağa, behişti müjdə verib qəbr tənhalığında həmdəmlik etməyə və Qiyamət gününə qədər bağışlanmaq tələbi üçün Allah-təala yetmiş min mələyi ona müvəkkil edər."

58. İki namazdan hansı yaxşıdır:

Cəmil ibn Saleh imam Sadiq (ə) -dan sual etdi" Bu iki namazdan hansı daha fəzilətlidir: İnsan əvvəl vaxtda namaz qılması ya bir az tə`xirə salıb məsciddə camaat namazında iştirak etməsi?"

Həzrət buyurdu: "Namazı tə`xirə sal və məscid əhli ilə birlikdə namaz qıl əgər məscidin imam camaatı varsa.

# *VII- FƏSİL*

## *CAMAAT NAMAZININ CƏRGƏSİ*

59. Namazı kamil edən:

Həzrət Rəsulallah (c) buyurur: “Camaat namazının cərgələrini bərabər edin, cərgələri bərabər etmək namazı kamilləşdirmək deməkdir.”

60. Peyğəmbərin (c) arxasında namaz:

İmam Sadiq (ə) buyurur: “Camaat namazının birinci cərgəsində dayanan Peyğəmbərin (c) arxasında birinci cərgədə namaz qılan şəxs kimidir.”

61. Cihad cərgəsi və camaat cərgəsi:

İmam Musa ibn Cəfər (ə) buyurur: “Birinci cərgədə namaz qılmaq, Allah yolunda cihad etmək kimidir.”

62. Camaat namazında nizam-intizamsızlıq:

Peyğəmbər (c) camaat namazında namaz qılanların çiyinlərini düzəldib deyirdi: “Bərabər və nizamlı olun! Sizin qəlbləriniz bir-birindən ayrılmasın deyə ayrı və pərakəndə olmayın!”

63. Camaat namazının cərgələrini nizamlı etmək:

Rəvayət olunub ki, Peyğəmbər (c) həmişə namaza duranda deyərdi namazın cərgələrini nizamlı edin, filan kəs bir az qabağa gəl, filan kəs sən bir az arxaya get. O vaxt buyurur: Əgər öz cərgələrinizi nizamlı edib bir cərgədə düz dayansanız, Allah-təala sizi mələklər kimi hidayət edər.” Bu ayəni tilavət edərdi:

وَ اِنّـا لَنَحـنُ الصّـافونَ و اِنّا لَنَحنُ المُسَبِّحُونَ

Əmirəlmö`minin Əli (ə) mələklərin sifəti barədə buyurub: “Onlar cərgə bağlayandırlar ki, heç vaxt öz cərgələrindən ayrılmırlar və zikr edəndirlər ki, heç vaxt zikr etməkdən yorulmurlar.”

64. Birinci cərgə mələklərin cərgəsi:

İmam Əli (ə) buyurur: Camaat namazının ən yaxşı cərgəsi birinci cərgədir. O, mələklərin cərgəsidir və birinci cərgədə ən yaxşı yer imamın sağ tərəfidir.”

65. Camaat namazının cərgələrinin nizamı:

Həzrət Rəsulullah  (c) camaata müraciət edərək buyuyrdu: Ey camaat camaat namazının cərgələrini bərabər edin və çiyin-çiyinə durun ki, fasilə və ayrılıq sizin aranızda olmasın. səliqəsiz dayanmayın ki, Allah sizin ürəklərinizi bir-birindən ayrı salsın. Bilin ki, cərgələrdə nizam-intizama necə riaət etməyinizi arxadan görürəm.”

66. Mələklərin cərgələri kimi:

Həzrət Rəsulullah (c) buyurur: “Düzü camaat namazında mənim ümmətimin cərgəsi eyni mələklərin cərgəsi kimidir və bir rəkət namaz, camaat namazında 24 rəkət hesab olunur ki, hər bir rəkət hər bir rəkət Allah yolunda qırx ilin ibadətdən əzizdir.”

67. Camaat namazının birinci cərgəsi:

Allah və onun mələkləri camaat namazının birinci cərgəsində bir-birindən bağlır olanlara salam göndərir.

68. Birinci cərgəni nizamlamaq:

İmam Sadiq (ə) buyurdu: “Camaat namazının cərgələrin tamam edin (naqis olmasın). Birinci cərgədə yer olmdıqda sizdən bir nəfərin ikinci cərgədə dayanması nöqsan deyil. Namaz halında qarşıdakı cərgədə boş yer görsəniz, əyri şəkildə də olsa boş yeri doldurun.”

69. Birinci cərgədə namazın fəziləti:

Əziz İslam Peyğəmbəri (c) buyurdu: “Mənim ümmətim əgər üç şeyin nə qədər fəzilətli olduğunu bilsə, onun üçün püşk atar. O üç şey azan deməк, cümə namazına getmək və camaat namazının birinci cərgəsində dayanmaqdır.”

70. Boş yeri doldurun!

Məhəmməd ibn Müslüm deyir ki, İmam Baqirdən (ə) soruşdum. Məsciddə namaz qılarkən özümdən qabaqkı cərgədə boş yer görsəm keçim orada dayanım? Həzrət buyurdu: “Bəli, peyğəmbər (c) belə buyurub: Mən sizi qabaqdan gördüyüm kimi başımın arxasından da görürəm. Cərgələrinizi nizamlı edin, əks təqdirdə qəlbləriniz bir-birindən ayrılır.”

71. Camaat namazında ən yaxşı yer:

Həzrət imam Rza (ə) buyurdu: “Ən yaxşı cərgə birinci cərgədir və ən yaxşı yer birinci cərgədə imam camaatin yanıdır.”

72. Ən yaxşı cərgə:

Rəsulullah (c) buyurdu: Camaat namazının ən yaxşı cərgəsi birinci cərgədir. Əgər camaat birinci cərgənin fəzilətini bilsəydi, bu cərgəyə hücum edərdilər və nəticədə püşk atmaqla birinci cərgədə namaz qılardı.”

# VIII-ci FƏSİL

## *İMAM CAMAATIN ŞƏRAİTİ*

73. Alimə iqtida etməyin savabı:

İmam Sadiq (ə) buyurur: “Bir alimin arxasında namaz qılmaq min rəkət namaza bərabərdir.”

74. Alimin arxasında namaz qılmağın savabı:

Həzrət Peyğəmbər (c) buyurur: “Alimin arxasında namaz qılan kəs, Allah peyğəmbərinin arxasında namaz qılan şəxs kimidir.”

75. Adil imam camaata iqtida etmək.

Həzrət rəsulallah (c) buyurur: “Nə vaxt Allah bəndəsi adil imamın arxasında namaz qılır, Allah onun üçün yüz min iyirmi dərəcə savab nəzərdə tutur.”

76. Həzrət İsanın (ə) İmam Zamana (ə.c.) iqtida etməsi:

Hədisdə belə gəlib: Həzrət Məhdinin (ə.c.) zuhurundan sonra, İsa ibn Məryəm namaz vaxtı İmamın yanında hazır olacaq. İmam Məhdi (ə.c.) onu imam camaat olmağa də`vət edəcək. Amma O, deyəcək ki, siz bu işə layiqsiniz. Həzrət İsa (ə) mə`mun ünvanında İmamın arxasında camaat namazına dayanacaq.

77. Mə`mumu fikirləşmək:

İmam Sadiq (ə) buyurur: Yaxşı olar ki, imam camaat camaat namazını çox uzatmayıb namazı ən zəif mə`mununun  (mə`mum – imam camaata təqlid edib namaz qılandır) həddində etsin.”

78 Kişinin ədaləti:

İmam Sadiqdən (ə) sual olundu: Müsəlmanların içində kişinin ədalətli olması nəylə tanınır ki, onun şəhadəti müsəlmanların xeyirinə və zərərinə qəbul olunsun. Həzrət buyurdu:

Gündəlik beş namaza necə bağlı olmasından, namazların vaxtlarını diqqətlə izləməsindən və camaat namazını heç vaxt üzürsüz səbəbdəən tərk etməməsindən kişinin ədaləti tanınar.

79. Günah, imam camaat olmağa maneədir:

Səid ibn İsmayıl atasından nəql edir: “Həzrət İmam Rzaya (ə) ərz etdim: Bir nəfər günah edir amma etiqadı var əmri vilayəti arifə aya ona iqtida edim? İmam buyurdu: Xeyr!”

80. İmam camaatı seçməyin üsulu:

Rəsulullah(c) buyurdu: Sizin içinizdə daha nurlu olan imam camaat olsun və nur Qur`andır (Qur`an hafizləri və elimli olanlar imam camaat olsun) Məscidin öz əhlindən imam camaat seçilməsi yaxşıdır. Əgər qövmün əmiri adildirsə onun imam camaat olması daha layiqlidir.

81. Müxtəsər namaz:

İmam Sadiq (ə) atası İmam Baqirdən (ə) nəql edir ki, rəsulallah (c) yağışlı gecələrdə Məğrib namazını (camaatla) müxtəsər qılır və İşa namazına fəzilətli vaxtından tez başlayıb ikisinidə ardıcıl qılardı və deyərdi: “Camaata rəhm etməyənə rəhm olunmaz.”

82. Mə`mumun qeydinə qalmaq:

Həzrət Rəsulullah buyurur: “Mən bə`zən namaz halında ikən uşaq ağlamasını eşidirəm və namazı müxtəsər və yüngül qılıram. Çünki qorxuram anası üçün çətin olar.

83. Camaatın ən fəqihi:

Əmirəlmö`minin Əli (ə) buyurur: “Sizin fəsihiniz müəzzin, fəqihinizsə imam camaat olsun.”

84. Ən yaxşı insan imam camaatdir:

Peyğəmbər (c) buyurur: Gərək sizin ən yaxşınız imam camaat olsun, çünki onlar birinci behiştə daxil olanlardırlar. Və sizin namazınız Allaha yaxınlaşmaq üçün bir vasitədir. Buna görə öz yaxşılarınızı imam camaat seçin.

85. Mö`min üçün tövbə:

Rəsuli Əkrəm (c) buyurdu: “İmam camaat namazı gərək yüngül və müxtəsər qılsın. Çünki onların arasında xəstə, uşaq və qoca var. Əgər bir şəxs namazını tək qılmaq istəsə necə yaxşıdı, o cür qılsın.”

86. Qaranlıq səhrada camaat namazının nuru:

“Biharul ənvar” kitabında rəvayət olunub ki,

Peyğəmbərin əshablarından olan Qütadət ibn Nöman bir gecə məsciddə Peyğəmbərlə birlikdə camaat namazı qıldı. Rəsulallah (c) öz əshabının vəziyyətini nəzərə alırdı, çünki yollar uzaq idi və Mədinə də bu günki kimi abad deyil pərakəndə şəkildə idi. Buna görə hava çox qaralaşmamış Peyğəmbər (c) bir Məğrib və İşa namazını qılırdı. Hava o gecə dumanlı idi. Qütadət namazını qurtaran vaxt artıq hava çox qaranlıq olmuşdu. Evə qayıtmaq çox çətin idi. Rəsulallah (c) bildi ki, artıq Qütadətin öz əməlinin nurundan istifadə etməsinin vaxtı çatıb. Buna görə məscidin küncündən qurumuş bir xurma çubuğu götürüb Qütadətə verdi. Çubuğdan nur saçırdı. Buyurdu: "Bu çubuq on zira (hər bir zira dirsəkdən barmaqların ucuna qədərdir) qarşını və arxanı işıqlandıracaq." Qütadət onun işığının vasitəsi ilə evinə getdi. Təsadüfən evinin yanına gəlmiş bir yırtıcını əlindəki çubuğun işığına görüb öldürdü. Rəvayətdə belə deyirlər ki, çubuğun nuru onun camaat namazının nuru imiş. Bəli, hər kəsin iman və əməlinin nuru onunla olacaq.

87. Üç dəstəyə iqtida etmək olmaz:

İmam Sadiq (ə) buyurur: Üç dəstənin arxasında namaz qılmayın. 1. Tanınmayan şəxsin arxasında. 2. Qüluv edən şəxsin arxasında (quluv edən, yə`ni Allahın sifətlərini imam yaxud peyğəmbərlərə şamil

edən şəxs) baxmayaraq ki, sənin həm əqidən yaxud da həm məzhəbindir. 3.Zahirdə günah edənin arxasında, ağıllı olsada belə.

88. İmam camaatın haqqı:

İmam camaatin haqqı sənin üçün budur, bil. O, mə`murdur seyr edə səninlə Allahının arasında olan yükü çiyninə götürür və bu məqamda o, sənin tərəfindən danışır, sən onun tərəfindən yox və o, sənin üçün dua edir, sən onun üçün yox! O, qorxu və narahat halda Allah qarşısında dayanıb sənin tərəfindən bu işi görür. Əgər bu işdə nöqsan olsa o, cavabdehdir, sən yox. Əgər bu işi tam və kamil etsə, bu kamillikdə sən də onunla şəriksən və onun sənə üstünlüyü yoxdur. O, sənin canını öz canı ilə və sənin namazını öz namazı ilə qoruyur. Deməl bu işin miqdarında ona ehtiram etməyin gərəkdir.

# *IX-cu FƏSİL*

## *CAMAAT NAMAZININ TƏRK ETMƏYİN ZƏRƏRLƏRİ*

89. Camaat namazına e`tinasızlıq:

Həzrət Əli (ə) buyurur: "Hər kəs camaat namazının azanını eşidə və heç bir üzürü olmadan camaat namazına getməyə, namazı qəbul deyil."

90. İmanın kökündən məhrum olmaq:

İmam Sadiq (ə) buyurmuşdur: “Bir qarış miqdarında müsəlman camaatını tərk edən kəs imanın kökünü öz boynundan qırmışdır.”

91. Məscidin qonşusu:

İmam Baqir (ə) buyurub: “Məscidlə qonşu olub, lakin camaat namazında iştirak etməyənin namazı kamil deyil. Əgər xəstə və ya başqa üzrlü səbəbi yoxdursa.”

92. Rədd olunmuş namaz

İmam Baqir (ə) buyurub: “Camaat namazının səbəbi müsəlmanların bir yerə cəm olmasıdır. Hər kəs camaat namazını səbəbsiz tərk etsə onun namazı qəbul deyil.”

93. Gecəni əhya saxlamaq.

Şəhid Sani (r) (ikinci şəhid) nəql edir: “Camaat namazında iştirak edə bilməyənlər o gecəni sübhə kimi əhya saxlayıb ibadətə məşğul olardılar ki, bəlkə Allah camaat namazının savabını onlara əta edə.”

94. Namazından bəhrəsizlik:

İmam Sadiq (ə) buyurdu: Camaat namazı yaradıldı ki, camaatla birgə namaz qılanla namaz qılmayan tanınsın. Və o şəxs ki, namazın vaxtına diqqətlidir, namazın vaxtını zay edənlərdən seçilsin. Əgər bunlar olmasaydı, heç kəsin şəhadət verməyə ləyaqəti yox idi. Camaat namazında iştirak etməyənin

namazdan heç bir bəhrəsi yoxdur.”

95. Camaat namazını tərk edənlərin cəzası:

Həzrət Əliyə (ə) xəbər verdilər ki, bə`ziləri camaat namazına gəlmir. Həzrət bir xütbə oxuyub dedi: “Bə`ziləri bizimlə namaz qılmaq üçün məscidə gəlmirsə, bizimlə yemək yeməsin, su içməsin, məsləhət etməsin, bizdən qız almasın və bizim qənimətimizdən bir şey götürməsinlər. Bu vəziyyət bizimlə məscidə camaat namazına gələnə qədər davam etsin”.

96. Camaat namazının fəzilətindən məhrum olmaq:

Peyğəmbər (c) buyurdu: “Cəbrayıl, Mikayıl, İsrafil və Əzrayıl hər biri həştad min mələklə yanıma gəlib dedilər: “Ey Məhəmməd! Allah sənə salam göndərir və deyir öz ümmətinə bildir: Baxmayaraq ki, onun əməlləri yer əhlinin əməllərindən çoxdur Əgər camaat namazında iştirak etməyibsə, öləndə behiştin iyi o kəsə çatmayacaq. Mən onun o əməllərini qəbul etmirəm. Ey Məhəmməd! Camaat namazını tərk edən mənim yanımda məl`undur. Mələklərin yanında və səmavi kitablarda Tövrat, İncil, Zəbur və Furqanda da bu cür şəxslər Allahın lə`nətinə düçar olurlar. Camaat namazını tərk edən sübhü və əsri Allahın lə`nətində yaşayır. Ey Məhəmməd! Camaat namazını tərk edənin duasını qəbul etmirəm və rəhmətimi də ona

göndərmirəm. Əgər xəstələndilər görüşünə getməyin, elə ki, öldülər təşyi cənazə etməyin, Yer üzündə camaat namazını tərk edənlərdən çox mənim əzabıma düçar olan yoxdur. Ey Məhəmməd! Behiştin iyi camaat namazın tərk edənə nəsib olmayacaq. Ey Məhəmməd! Ölən şəxs camaat namazının əhlindən olmasa onu, cəhənnəm oduna daxil edərəm.”

97. Müstəhəbb əməl:

İmam Sadiqin (ə) əshabından olan Zürarə və Fuzeyl dedilər ki, imam Sadiqdən(ə) soruşduq: Namazı camaatla qılmaq vacibdirmi? İmam buyurdu: “Namaz vacibdir, amma bütün namazları camaatla qılmaq vacib deyil, müstəhəbb əməldir. Əgər bir kəs e`tinasızlıq ucundan mö`min cəmiyyətdən üz çevirsə, namazı qəbul olmaz.

98. Cəbrayılın sifarişi:

Rəsuli Əkrəm (c) buyurdu: “Cəbrayıl məni camaat namazına o qədər sifariş etdi ki, namazın camaatsız səhih və qəbul olmadığını güman etdim.”

99. Dinin müsibəti:

Hatəm Əsəm demişdir: “Camaat namazı mənim əlimdən getdi, fəqət bir nəccar mənə baş sağlığı verdi. Əgər övladım əlimdən getsəydi, on mindən çox adam mənə baş sağlığı verərdi, çünki insanların yanında dinin müsibəti dünyanın müsibətindən yüngüldür.

100. Baş sağlığı vermək:

Rəvayət olunub ki, keçmişdə bir sıra əməli saleh hər vaxt camaat namazının təkbirətul ehramına çatmırdılar üç gün bir-birlərinə təsəlli verirdilər və əgər bütöv namaza çata bilməsəydilər, yeddi gün bir-birlərinə təsəlli verərdilər. Onlar bu işdə çox sə`y edirdilər. Bə`ziləri ölünün cənazəsini camaat namazına gəlməyənin qapısına aparırdılar. Eyni zamanda bu iş ölən kəsin də camaat namazında iştirak etməməsinə bir işarəymiş.

101. Məscid qonşularının camaat namazı:

Əli (ə) Kufəyə hicrətində müşahidə edir ki, məscidin qonşuları namazlarını evdə qılıb məscidə getmirlər. Bu zaman Həzrət e`lan etdi ya məscidə gəlib namazlarınızı camaatla birlikdə bir yerdə qılın ya məscidin qonşuluğundan köçüb başqaları ilə qonşu olun.

102. Peyğəmbərin (c) vəsiyyəti:

Peyğəmbər (c) öz vəsiyyətlərinin birində Abdullah ibn Məs`uda belə buyurur: “Ey Məs`udun oğlu! Məndən sonra qövmlər gələcək ləziz və cürbəcür yeməklər yeyəcəklər.” Bunu deyəndən sonra buyurdu: “Dini ictimayyətdə (camaat və cümə namazlarında) iştirak etməyəcəklər. Onlar İşa və gecə namazlarını yaddan çıxardacaqlar, Sübh namazını səhlənkarlıq edib qəzaya verərlər. Allah-təala onların barəsində belə buyurur: Namazı zay edib öz

şəhvətlərindən itaət göstərənlər özlərindən bir nəsil qoydular ki, onlar tezliklə azdırıcı əzabı dadacaqlar.”

103. Qul azad etmək:

Abdullah ibni Məs`ud bir gün camaat namazının birinci təkbirinə çata bilmir və bir təkbirin savabı əvəzində bir qul azad edir. O, Peyğəmbərin (c) xidmətinə gəlib söyləyir. “Mən namazın birinci təkbirinə çata bilmədiyim üçün bir qul azad etdim. Bu işlə əlimdən gedən savaba nail olurammı?” Həzrət buyurdu: “Xeyr.” İbni Məs`ud dedi: Əgər başqa bir qul azad etsəm, təkbirin savabına nail olacağam? Həzrət buyurdu: “Xeyr ey İbni Məs`ud! Yer aləmində olanları Allah yolunda versən də itirilmiş savabı dərk etməyəcəksən.”

104. Mənim ümmətimin yəhudilərinə salam verməyin:

İslam peyğəmbəri (c) buyurmuşdur: “Yəhudi və nəsranilərə salam edin, amma mənim ümmətimin yəhudisinə salam verməyin! Soruşdular: “Sizin ümmətinizin yəhudisi kimdir? Buyurdu: “Azan və iqaməni eşidib camaat namazına gəlməyənlər.”

105. Camaat namazını üzürsüz tərk etmək:

Əziz İslam peyğəmbəri buyurub: “Məsciddə üzürsüz camaat namazı qılmayan şəxsin namazı kamil deyil. Evində namaz qılıb müsəlmanların cəmiyyətinə qarşı diqqətsiz olanın qeybəti caizdir və adillikdən

düşür.”

106. Camaat namazını tərk etməyin zərəri:

Rəsulullah (c) buyurdu: Canavar sürüdən ayrı düşmüş qoyunu tez tuta bildiyi kimi, Şeytan da insanın canavarıdır. Sizə özbaşınalıqdan, lazımsız dəstə yığmaqdan qorunmağı və camaat namazında, məsciddə və ümumi məclislərdə iştirak etməyi vəsiyyət edirəm.

Kənzul ummal c.4, s. 581, h. 20355.

# *2-Cİ HİSSƏ*

# *CAMAAT NAMAZININ ƏHKAMI*

***AYATULLAHÜL-ÜZMA HACI ŞEYX MƏHƏMMƏD FAZİL LƏNKƏRANİ (DAMƏ ZİLLUHUL-ALİ) HƏZRƏTLƏRİNİN "TOVZİHUL-MƏSAİL" RİSALƏSİ İLƏ UYĞUN***

## *CAMAAT NAMAZININ ƏHKAMI*

Məsələ: 1421.Müstəhəbdir ki, vacibi namazlar, xüsusilə gündəlik vacib namazları camaatla birlikdə qılınsın. Sübh, məğrib və işa namazlarında, məxsusən məscidə qonşu olan və məscidin azan səsini eşidənlər üçün camaat namazında iştirak etmək daha çox sifariş olunub.

Məsələ: 1422. Bir rəvayətdə gəlib ki, əgər bir nəfər imama iqtida etsə, onların namazlarının hər rəkətinin 150 rəkət namaz savabı vardır. Əgər iki nəfər iqtida etsə, hər rəkətinin 600 rəkət namaz savabı var. İqtida edənlər nə qədər artsa, namazlarının savabı da bir o qədər artacaq. Əgər onların sayı 10 nəfərdən keçsə, bütün asimanlar kağız, dəryalar mürəkkəb, ağaclar qələm, cin, ins və məlaikələr yazan olsalar, o namazın bir rəkətinin savabını yazıb qurtara bilməzlər.

Məsələ: 1423.Etinasızlıq üzündən camaat namazında iştirak etməmək caiz deyildir. İnsanın üzrü olmadan camaat namazına getməməsi layiq deyil.

Məsələ: 1424.Müstəhəbdir ki, insan gözləsin və namazı camaatla qılsın. Camaatla qılınan namaz, əvvəl vaxtda təklikdə qılınan namazdan daha yaxşıdır. Həmçinin, müxtəsər və qısa şəkildə qılınan camaat namazı təklikdə uzun-uzadı qılınan

namazdan daha yaxşıdır.

Məsələ: 1425.Camaat namazı təşkil olunanda müstəhəbdir ki, təklikdə namaz qılan bir kəs namazı yenidən camaatla qılsın. Əgər sonradan birinci namazının batil olduğunu başa düşsə, ikinci namazı kifayətdir.

Məsələ: 1426.Əgər imam və yaxud mə`mum camaatla qıldığı namazı yenidən camaatla qılsa, bu halda əgər ikinci camaat namazına gələnlər birinci namazdakılardan başqa şəxslər olsa və o şəxs də imam olsa eybi yoxdur.

Məsələ: 1427.Namazda vəsvas olan və namazı yalnız camaatla qıldıqda vasvaslıqdan xilas olan bir kəs namazı camaatla qılmalıdır.

Məsələ: 1428.Əgər ata və ya ana öz övladına, namazı camaatla qılmasını əmr etsələr, onu tərk etmək ata-ananın əziyyətlərinə, narahatlıqlarına, yaxud onlara qarşı ədəbsizlik, hörmətsizlik olarsa, namazı camaatla qılması vacibdir.

Məsələ: 1429.Yağış yağması üçün qılınan istisqa, habelə Fitir və Qurban namazları istisna olmaqla (onları camaatla qılmaq olar) müstəhəb namazları camaatla birlikdə qılmaq olmaz.

Məsələ: 1430.Pişnamaz

gündəlik namazını qılanda gündəlik namazlardan hər birini ona iqtida edib qılmaq olar. Amma əgər imam gündəlik namazını ehtiyatən ikinci dəfə qılırsa, mə`mum öz namazında ona iqtida edə bilməz; amma hər ikisi bir cəhətdən ehtiyat cəhətindən bir olsalar, eybi yoxdur.

Məsələ: 1431.Əgər imam özünün gündəlik namazının qəzasını qılsa ona iqtida etmək olar; amma namazını ehtiyatən qəza edirsə, yaxud başqa bir kəsin namazının ehtiyatən qəzasını edirsə, hətta onun üçün pul almasa da, ona iqtida etmək işkallıdır. Amma əgər insan namazı fövtə getmiş bir kəsin qəza namazını qılmasını bilsə, ona iqtida etməyin eybi yoxdur.

Məsələ: 1432.Əgər imam mehrabda olsa və bir nəfər də onun arxasında olub iqtida etməsə, mehrabın iki tərəfində durub mehrabın divarının səbəbilə imamı görməyən şəxslər ona iqtida edə bilməzlər. Hətta əgər imamın araxasında bir kəs iqtida etmiş olsa, onun iki tərəfində duran şəxslərin, imamı mehrabın divarının vasitəsilə görmədikləri halda iqtida etməsi, ehtiyat-vacibə görə səhih deyil.

Məsələ: 1432.Birinci cərgənin uzun olması səbəbilə cərgənin iki tərəfində duran şəxslər imamı görməsələr də, ona iqtida edə bilərlər. Həmçinin əgər (birinci cərgədən başqa) sair cərgələrdən birinin

də uzun olması səbəbilə, onun iki tərəfində duran şəxslər öz qabaqlarındakı cərgəni görməsələr, iqtida edə bilərlər.

Məsələ: 1434.Əgər camaat namazının cərgələri məscidin qapısına çatsa, qapının müqabilindəki cərgənin arxasında duran şəxsin namazı səhihdir. Həmçinin onun arxasında durub iqtida edən şəxslərin də namazı səhihdir. Amma onun iki tərəfində durub qabaqdakı cərgəni görməyənlərin iqtida etmələri, ehtiyat-vacibə görə səhih deyil.

Məsələ: 1435.Sütunun arxasında duran bir kəs əgər sağ, yaxud sol tərəfdən başqa mə`mumun vasitəsilə imama müttəsil olmasa, iqtida edə bilməz. Amma əgər sağ, yaxud sol tərəfdən müttəsil olsa, iqtida edə bilər.

Məsələ: 1436.İmamın dayandığı yer mə`mumun dayandığı yerdən uca olmamalıdır. Amma əgər imamın dayandığı yer azacıq uca olsa, eybi yoxdur. Həmçinin əgər namaz qılınan yer alçaqlı və ucalı yer olsa və imam uca olan yerdə dayansa, bu halda onun alçaqlığı-ucalığı çox olmasa və adi camaat arasında düzənlik yerdir-deyilsə, maneəsi yoxdur.
Məsələ: 1437.Əgər mə`mumun yeri imamın yerindən uca olsa, bu halda qədim zamanlarda adət olan qədərdə uca olsa və camaat arasında bir

ictima (toplantı) hesab olunsa, eybi yoxdur. Amma əgər bu zamanın çox mərtəbəli evləri kimi olsa, camaat namazının işkalı vardır.

Məsələ: 1438.Əgər bir cərgədə dayanan şəxslərin içərisində müməyyiz (yaxşını və pisi başa düşən) uşaq fasilə salsa və onun namazının batil olmasını bilməsələr, iqtida edə bilərlər.

Məsələ: 1439.İmamın təkbirindən sonra qabaqdakı cərgə namaza hazır olsa və onların təkbir demələri yaxın olsa sonrakı cərgədə dayanan şəxslər təkbiri deyə bilər. Amma ehtiyat-müstəhəb budur ki, birinci cərgənin təkbiri qurtarana qədər gözləsin.

Məsələ: 1440.Əgər qabaqdakı cərgələrdən hər hansı birinin namazının batil olduğu məlum olsa, sonrakı cərgələr iqtida edə bilməz. Amma onların (qabaqdakıların) namazlarının səhih olub-olmaması mə`lum olmasa, iqtida edə bilər.

Məsələ: 1441.Əgər bir kəs imamın namazının batil olmasını bilsə (məsələn, onun dəstəmazsız olduğunu bilsə) hətta imamın özü bu işdən agah olmasa da, ona iqtida edə bilməz.

Məsələ: 1442.Əgər mə`mum namazdan sonra imamın adil olmadığını, yaxud kafir olduğunu, yaxud müəyyən səbəblər üzündən namazının batil olduğunu

bilsə (məsələn, dəstəmazsız namaz qıldığını bilsə) mə`mumun namazı səhihdir.

Məsələ: 1443.Əgər namaz əsnasında iqtida edib-etməməsində şəkk etsə, bu halda mə`mumun vəzifəli olduğu bir haldadırsa, (məsələn, imamın Həmd-Surəsinə qulaq asan haldadırsa) namazını camaatla qılıb qurtara bilər. Əgər həm imamın, həm də mə`mumun vəzifəsi olan işlərə məşğuldursa (məsələn, rükuda və ya səcdədədirsə) namazı furada niyyəti ilə tamam etməlidir.

Məsələ: 1444.İnsan camaat namazı əsnasında furada niyyəti edə bilər.

Məsələ: 1445.Əgər mə`mum imamın Həmd surəsi qurtarandan sonra furada niyyət etsə, onları oxuması lazım deyil. Amma əgər Həmd-Surənin tamam olmasından qabaq furada niyyəti etsə, ehtiyat-vacibə görə onları əvvəldən oxumalıdır.

Məsələ: 1446.Əgər bir kəs camaat namazı əsnasında furada niyyəti etsə, ehtiyat-vacibə görə yenidən camaat namazı niyyəti etməməlidir. Amma əgər furada niyyəti edib-etməməsində tərəddüddə qalsa və sonradan camaatla birlikdə tamamlamaq qərarına gəlsə, namazı səhihdir.

Məsələ: 1447.Əgər furada niyyəti edib-

etməməsində şəkk etsə, gərək niyyətini furada etməməsinə döndərsin.

Məsələ: 1448.Əgər imam rükuda olan vaxt iqtida edib onun rükusuna çatsa, hətta imamın rükusu tamam olsa belə, namazı camaatla səhihdir və bir rəkət hesab olunur. Amma əgər rüku qədərində əyilib imamın rükusuna çatmasa, onun camaat namazı batildir.

Məsələ: 1449.İmam rükuda olan vaxtda iqtida edib rüku qədərində əyilsə və imamın rükusuna çatıb-çatmamasında şəkk etsə namazı batildir. Ehtiyat budur ki, namazı qurtarandan sonra yenidən qılsın.

Məsələ: 1450.Əgər imam rükuda olan vaxt iqtida etsə və rüku qədərində əyilməzdən qabaq imam başını rükudan qaldırsa, furada niyyəti də edə bilər, yaxud da gözləyə bilər ki, imam sonrakı rəkət üçün qalxanda niyyət edib onu öz namazının birinci rəkəti hesab etsin. Amma əgər imamın ayağa qalxması çox uzun çəksə və bu şəxs camaat namazı qılır-deyilməsə, furada niyyəti etməlidir.

Məsələ: 1451.Əgər namazın əvvəlində, yaxud Həmd-Surə oxunan vaxt iqtida etsə və rükuya getməmişdən qabaq imam başını rükudan qaldırsa, onun namazı camaatla səhihdir: rüku edib özünü

imama çatdırmalıdır.

Məsələ: 1452.Əgər imama axırıncı rəkətin təşəhhüdünü oxuduğu vaxt çatsa, bu halda camaat namazının savabını qazanmaq istəyərsə, gərək niyyət edib, təkbirətül-ehram dedikdən sonra oturub təşəhhüdü imamla birlikdə oxusun, amma salamları deməyib gözləməlidir ki, imam salamı desin, sonra ayağa qalxıb yenidən niyyət etmədən, təkbir demədən Həmd-Surəni oxumalıdır. Bunu, öz namazının birinci rəkəti hesab etməlidir.

Məsələ: 1453.Mə`mum imamdan qabaqda durmamalıdır. Ehtiyat-vacibə görə imamdan bir qədər arxada dayanmalıdır. Əgər onun boyu imamdan uca olsa və rükuda, səcdədə ondan qabaqda olsa, eybi yoxdur.

Məsələ: 1454.Camaat namazında mə`mum və imam arasında arxası görünməyən pərdə və bu kimi şeylər fasilə salmamalıdır. Həmçinin insan ilə onun, imama müttəsil olduğu bir şəxs arasında da fasilə düşməməlidir. Əgər mə`mum qadın, imam isə kişi olsa pərdə və bu kimi şeylərin fasilə salmasının eybi yoxdur. Qadınla, kişi olan sair mə`mum arasında pərdə və bu kimi şeylər fasilə salsa (belə ki, qadın onun vasitəsilə imama müttəsildirsə) eybi yoxdur. Amma əgər imam və mə`mum-hər ikisi qadın

olsa, bunun hökmü kişilərin hökmü kimidir, yəni onların arasında heç nə fasilə salmamalıdır.

Məsələ: 1455. Əgər namaza başlayandan sonra imamla mə`mum arasında, yaxud həmin mə`mumun imama müttəsil olduğu şəxs arasında pərdə və ya o biri tərəfi görünməyən başqa bir şey fasilə salsa, namazı furadadır və səhihdir.

Məsələ: 1456.Ehtiyat-vacib budur ki, mə`mumun səcdə yeri ilə imamın durduğu yerin arasında bir normal addımdan artıq fasilə olmasın. Həmçinin əgər insan, qabağında dayanan mə`mumun vasitəsilə imama müttəsil olsa, ehtiyat-vacibə görə onun səcdəsinin yeri qabaqdakının dayandığı yerdən bir normal addımdan artıq olmasın. Ehtiyat-müstəhəb budur ki, mə`mumun səcdəsinin yerinin, onun qabağında duran kəsin dayandığı yerlə, ümumiyyətlə fasiləsi olmasın.

Məsələ: 1457.Əgər mə`mum, sağında və ya solunda olan kəsin vasitəsilə imama müttəsil olub amma qabaqdan müttəsil olmasa, bu halda bir normal addımdan artıq fasiləsi olmazsa namazı səhihdir.

Məsələ: 1458.Əgər namazda mə`mumla imam, yaxud mə`mumla onun imama müttəsil olduğu şəxs arasında bir addımdan artıq fasilə düşsə onun namazı

furada olur və səhihdir.

Məsələ: 1459.Əgər qabaqdakı cərgədə dayananların hamısının namazı tamam olsa, yaxud hamısı furada niyyəti etsələr, bu halda fasilə normal addımdan çox olmasa, sonrakı cərgənin namazı camaat namazı şəklində səhihdir. Əgər bu miqdardan artıq olsa furada olur və səhihdir.

Məsələ: 1460.Əgər bir kəs ikinci rəkətdə iqtida etsə, qunutu və təşəhhüdü imamla birlikdə oxumalıdır. Ehtiyat budur ki, təşəhhüdü oxuyan zaman əllərin barmaqlarını və ayaqlarının pəncəsini yerə qoyub, dizlərini qaldırsın, təşəhüddən sonra imamla birlikdə qalxıb Həmd və Surəni oxusun. Əgər Surə üçün vaxt qalmasa, təkcə Həmdi oxuyub rükuda və ya səcdədə özünü imama çatdırsın, yaxud da furada niyyət etsin, namazı da səhihdir.

Məsələ: 1461.Əgər imam dörd rəkətli namazın ikinci rəkətində olanda iqtida etsə, namazın ikinci (imamın üçüncü) rəkətində iki səcdədən sonra oturub təşəhhüdün vacibi qədərini oxumalı, sonra ayağa qalxmalıdır. Əgər təsbihatı üç dəfə deməyə vaxt olmazsa, gərək bir dəfə deyib rükuda və ya səcdədə özünü imama çatdırsın.

Məsələ: 1462.Əgər imam üçüncü və ya dördüncü rəkətdə olsa və mə`mum iqtida edib

Həmdi oxuyacağı surətdə imamın rükusuna çatmayacağını bilsə, ehtiyat-vacibə görə gözləməlidir ki, imam rükuya getsin, sonra iqtida etsin.

Məsələ: 1463.Əgər imamın üçüncü və ya dördüncü rəkətində iqtida etsə, gərək Həmd-Surəni oxusun. Əgər Surə oxumağa vaxt olmasa, Həmdi tamamlamalı, rükuda özünü imama çatdırmalıdır. Amma əgər imama səcdədə çatsa, daha yaxşı olar ki, ehtiyatən namazı ikinci dəfə qılsın.

Məsələ: 1464.Surəni və ya qunutu yerinə yetirdiyi surətdə rükuda imama çatmayacağını bilən bir kəs, Surəni oxumamalı, yaxud qunutu tutmalıdır. Amma əgər oxusa namazı səhihdir.

Məsələ: 1465.Bir kəs Surəni başlayacağı, yaxud qurtaracağı halda imamın rükusuna çatacağına xatircəmdirsə, ehtiyat-vacib budur ki, Surəni başlasın və ya başlayıbsa qurtarsın.

Məsələ: 1466. Surəni oxuyacağı təqdirdə imamın rükusuna çatacağına yəqini olan bir kəs Surəni oxusa, amma imamın rükusuna çatmasa, namazı səhihdir.

Məsələ: 1467.İmam ayaq üstə olanda, mə`mum onun hansı rəkətdə olduğunu bilmirsə, ona iqtida edə bilər. Amma gərək Həmd-Surəni qürbət qəsdi ilə oxusun. Sonradan imamın birinci, yaxud ikinci

rəkətdə olduğunu bilsə, namazı səhihdir.

Məsələ: 1468.Bir kəs imamın birinci, yaxud ikinci rəkətdə olduğunu güman edərək Həmd-Surəni oxumasa, rükudan sonra onun üçüncü, yaxud dördüncü rəkətdə olduğunu başa düşsə, namazı səhihdir. Amma rükudan qabaq başa düşsə, Həmd-Surəni oxumalıdır. Vaxtı olmasa təkcə Həmdi oxumalı, rükuda və ya səcdədə özünü imama çatdırmalıdır.

Məsələ: 1469.İmamın üçüncü, yaxud dördüncü rəkətdə olmasını güman edən bir kəs Həmd-Surəni oxusa və rükudan əvvəl və ya sonra onun birinci, yaxud ikinci rəkətdə olduğunu başa düşsə, namazı səhihdir. Həmd-Surə əsnasında başa düşsə onları axıra çatdırması lazım deyil.

Məsələ: 1470.Əgər bir kəs müstəhəbbi namaza məşğul olduğu vaxt camaat namazı təşkil olunsa, bu halda namazını qurtararsa camaat namazına çatacağına xatircəm deyilsə, müstəhəbdir ki, namazı kəsib camaatla birlikdə namaz qılsın. Hətta əgər birinci rəkətə çatacağına xatircəm olmasa da, müstəhəbdir ki, həmin göstərişə əməl etsin.

Məsələ: 1471.Üç, yaxud dörd rəkətli namazı qılmağa məşğul olan zaman camaat namazı təşkil olunsa, bu halda üçüncü rəkətin rükusuna

getməyibsə və namazı axıra qədər qılacağı təqdirdə camaat namazına çatacağına xatircəm deyilsə, müstəhəbdir ki, namazı müstəhəb namaz niyyətinə döndərib iki rəkətdə qurtarsın və özünü camaat namazına çatdırsın.

Məsələ: 1472.Əgər imamın namazı qurtarsa, mə`mum da birinci təşəhhüdü və ya birlikdə salamı deməyə məşğuldursa, furada niyyəti etməsi lazım deyil.

Məsələ: 1473.İmamdan bir rəkət dala qalan bir kəs onun axırıncı rəkətinin təşəhhüdünü oxuduğu vaxt, furada niyyətini edə, qalxıb namazını qurtara bilər və ya əllərinin barmaqlarını, ayaqlarının pəncəsini yerə qoyub dizlərini yerdən aralayaraq imamın, namazın salamını deməsini gözləməli, sonra isə ayağa qalxmalıdır.

## *PİŞNAMAZIN ŞƏRTLƏRİ*

Məsələ: 1474.İmam camaat baliğ, aqil 12 İmam şiəsi, adil, halalzadə olmalı, namazı səhih tərzdə oxumalıdır. Həmçinin, ehtiyat-vacibə görə imam camaat kişi olmalıdır. Yaxşı və pisi başa düşə bilən müməyyiz uşağın başqa bir uşağa iqtida etməsinin maneəsi yoxdur.

Məsələ: 1475.Bir kəs əvvəlcə imamın adil

olduğunu bilib sonradan ədalətində qalıb-qalmamasında şəkk etsə, ona iqtida edə bilər.

Məsələ: 1476.Ayaq üstə namaz qılan bir kəs oturan, yaxud uzanan halda namaz qılana iqtida edə bilməz. Habelə, oturan halda namaz qılan bir kəs uzanan halda namaz qılana iqtida edə bilməz.

Məsələ: 1477. Oturan halda namaz qılan bir kəs elə o halda namaz qılan başqa bir kəsə iqtida edə bilər. Amma ehtiyat-vacib budur ki, uzanan halda namaz qılan bir kəs, uzanan və ya oturan halda namaz qılan şəxsə iqtida etməsin.

Məsələ: 1478.Əgər piş namaz müəyyən üzr səbəbi ilə təyəmmüm, yaxud cəbirə dəstəmaz ilə namaz qılsa ona iqtida etmək olar. Amma müəyyən səbəblərə görə nəcis paltarda namaz qılırsa, ehtiyat-vacibə görə gərək ona iqtida olunmasın.

Məsələ: 1479.Əgər imam, müəyyən xəstəlik səbəbi ilə bovl və ya qaitin çölə gəlməsinin qarşısını ala bilməsə, ehtiyat-vacibə görə ona iqtida etmək olmaz. Habelə, müstəhazə olmayan qadın müstəhazə qadına iqtida edə bilməz.

Məsələ: 1480.Ehtiyat-vacibə görə gərək cüzam (xora) və bərəs (alaca) xəstəliyinə yoluxan şəxs, habelə, şəri hədd (şallaq) vurulan şəxs

imam olmasın.

## *CAMAAT NAMAZININ HÖKMLƏRİ*

Məsələ: 1481.Mə`mum niyyət edəndə imamını müəyyən etməlidir, amma adını bilməsi lazım deyil. Məsələn, "bu, hal-hazırdakı imama iqdtida edirəm"-deyə niyyət etsə, namazı səhihdir.

Məsələ: 1482.Mə`mum Həmd-Surə istisna olmaqla, namazın qalan hissələrinin hamısını özü deməlidir. Amma əgər onun birinci və ya ikinci rəkəti, imamın isə üçüncü və ya dördüncü rəkəti olsa, Həmd-Surəni oxumalıdır.

Məsələ: 1483.Əgər mə`mum sübh, məğrib və işa namazının birinci və ikinci rəkətlərində imamın Həmd-Surəsinin səsini eşitsə, hətta onun kəlmələrini bir-birindən ayırd edə bilməsə də, Həmd-Surəni oxumamalıdır. Amma əgər imamın səsini eşitməsə, müstəhəbdir ki, Həmd-Surəni oxusun. Lakin ahəstə oxumalıdır; səhvən ucadan oxusa, eybi yoxdur.

Məsələ: 1484.Əgər mə`mum imamın Həmd-Surəsinin bəzi kəlmələrini eşitsə, ehtiyat-vacib budur ki, Həmd-Surəni oxumasın.

Məsələ: 1485.Əgər mə`mum səhvən Həmd-Surəni oxusa və ya eşitdiyi səsin imamın səsi olmadığını güman edərək Həmd- Surə oxuyub sonradan

onun səsi olduğunu başa düşsə, namazı səhihdir.

Məsələ: 1486.Əgər imamın səsini eşidib-eşitməməsində şəkk etsə, yaxud bir səs eşidib, imamın, yaxud başqa kəsin səsi olduğunu bilməsə, Həmd-Surəni, ümumiyyətlə qürbət qəsdi ilə oxuya bilər.

Məsələ: 1487.Ehtiyat-vacib budur ki, mə`mum zöhr və əsr namazlarının birinci və ikinci rəkətlərində Həmd-Surəni oxumasın və müstəhəbdir ki, onun yerinə zikr desin.

Məsələ: 1488. Mə`mum təkbirətül-ehramı imamdan qabaq deməməlidir. Hətta ehtiyat-vacib budur ki, onun təkbirətül-ehramı qurtarmayınca, təkbir deməsin.

Məsələ: 1489.Əgər mə`mum imamın salamlarını eşitsə və ya onun nə vaxt salam deyəcəyini bilsə, ondan qabaq salamları deməməlidir. Əgər qəsdən imamdan qabaq desə, işkalı vardır. Amma əgər səhvən ondan qabaq desə, namazı səhihdir və salamları yenidən deməsi lazım deyil.

Məsələ: 1490.Əgər mə`mum namazın təkbirətül-ehram və salamlarından başqa qalan hissələrini imamdan qabaq desə, eybi yoxdur. Amma əgər onları eşitsə və ya imamın onları nə vaxt deməsini bilsə,

ehtiyat-müstəhəb budur ki, ondan qabaq deməsin.

Məsələ: 1491.Mə`mum, namazda təkcə imamın oxumalı olduğu şeylər istisna olmaqla, sair əməlləri (rüku, səcdə kimi) imamla birlikdə, yaxud ondan azacıq sonra yerinə yetirməlidir. Əgər qəsdən imamdan qabaq, yaxud ondan bir müddət sonra yerinə yetirsə, məsiyət etmişdir və ehtiyat-vacib budur ki, namazı qılıb qurtarandan sonra yenidən qılsın.

Məsələ: 1492.Əgər səhvən başını rükudan qaldırıb imamın rükuda olduğunu görsə, rükuya qayıtmalı, imamla birlikdə qalxmalıdır. Bu halda rükn olan rükunun artıqlığı səbəbi ilə namazı batil olmur. Amma əgər rükuya çatmamış imam rükudan qalxsa, namazı batildir.

Məsələ: 1493.Əgər mə`mum səhvən başını səcdədən qaldırıb imamın hələ səcdədə olduğunu görsə, gərək səcdəyə qayıtsın. Əgər hər iki səcdədə bu iş təkrar olsa, rükn olan iki səcdənin artıqlığı ilə namaz batil olmur.

Məsələ: 1494.İmamdan qabaq səhvən başını səcdədən qaldıran bir kəs, səcdəyə qayıtsa və səcdəyə çatmamış imam başını səcdədən qaldırsa, namazı səhihdir. Amma əgər bu iş bir rəkətin hər iki

səcdəsində baş versə, namazı batildir.

Məsələ: 1495.Əgər səhvən rükudan və ya səcdədən qalxıb imama çatmayacağını güman edərək yenidən rükuya, yaxud səcdəyə getməsə, namazı səhihdir.

Məsələ: 1496.Əgər başını səcdədən qaldırıb imamın səcdədə olduğunu görsə və imamın birinci səcdəsi olduğunu güman edərək imamla birlikdə səcdəyə getməyi qəsd edib səcdəyə getsə, sonra onun ikinci səcdəsi olduğunu başa düşsə, onun da ikinci səcdəsi hesab olunur. Əgər imamın ikinci səcdəsi olduğunu güman edərək səcdəyə getsə və səcdədən qalxandan sonra imamın birinci səcdəsi olduğunu başa düşsə, imama tabe olmaq hesab olunur və imamla birlikdə yenidən səcdəyə getməlidir. Hər iki halda ehtiyat-vacib budur ki, namazı camaatla qılıb qurtarandan sonra yenidən qılsın.

Məsələ: 1497.Əgər səhvən imamdan qabaq rükuya getsə və rükudan qalxacağı halda imamın qiraətindən bir hissəsinə çatarsa, bu halda qalxıb yenidən imamla birlikdə rükuya getsə, namazı səhihdir. Əgər qəsdən qayıtmasa, ehtiyat-vacibə görə namazı batildir. Birinci halda hər iki rükuda zikri deməlidir, lakin ehtiyat-vacib budur ki, birinci rükuda bir kiçik zikrdən artıq deməsin.

Məsələ: 1498.Əgər səhvən imamdan qabaq rükuya getsə və başını qaldıracağı halda imamın qiraətindən bir hissəsinə çatmayacaqsa, bu halda imamın ona çatmasını gözləsə, namazı səhidir.

Məsələ: 1499. Əgər səhvən imamdan qabaq səcdəyə getsə və imamın ona çatmasını gözləsə, namazı səhihdir.

Məsələ: 1500. Əgər imam qunutu olmayan bir yerdə qunut tutsa, yaxud təşəhhüdü olmayan yerdə təşəhhüd oxumağa başlasa, mə`mum qunutu və təşəhhüdü yerinə yetirməməlidir, amma imamdan qabaq rükuya gedə bilməz, yaxud ondan əvvəl ayağa dura bilməz. Üstəlik müəyyən əlamət və ya işarələrlə onu başa salmalıdır. Bu da mümkün olmasa, imamın təşəhhüdü və ya qunutunun qurtarmasını gözləməli, namazın ardını onunla qılmalıdır.

## *CAMAAT NAMAZINDA MÜSTƏHƏB OLAN ŞEYLƏR*

Məsələ: 1501.Əgər mə`mum bir kişi olsa, müstəhəbdir ki, imamın sağ tərəfində dayansın; bir qadın olsa, müstəhəbdir ki, imamın sağ tərəfində elə dursun ki, səcdəsinin yeri imamın dizləri, yaxud ayaqları ilə bərabər olsun. Əgər mə`mum bir kişi və bir qadın, yaxud bir kişi və bir neçə qadın olsa,

müstəhəbdir ki, kişi imamın sağ tərəfində, qadınlar isə imamın arxa tərəfində dursunlar. Əgər bir neçə kişi və bir neçə qadın olsa, müstəhəbdir ki, kişilər imamın arxasında, qadınlar da kişilərin arxasında dursunlar.

Məsələ: 1502.Müstəhəbdir ki, imam cərgənin ortasında, elm, kamal və təqva sahibi olan sair şəxslər isə birinci cərgədə dayansınlar.
Məsələ: 1503.Müstəhəbdir ki, camaat namazının cərgələri münəzzəm (nizam-intizamlı) olsun, bir cərgədə duran şəxslərin aralarında fasilə düşməsin, çiyinləri bir xətt boyunda olsun.

Məsələ: 1504.Müstəhəbdir ki, qəd-qamətissalat deyiləndən sonra mə`mumlar ayağa qalxsınlar.

Məsələ: 1505.Müstəhəbdir ki, imam, mə`mumların arasında halı başqalarına nisbətən zəif olanları nəzərə alsın, tələsməsin ki, zəiflər də ona çatsın. Habelə, müstəhəbdir ki, qunut, rüku və səcdələri uzatmasın. Amma ona iqtida edənlərin hamısının bu kimi işlərə meylli olduqlarını bilsə, eybi yoxdur.

Məsələ: 1506.Müstəhəbdir ki, imam camaat Həmd-Surədə və ucadan oxunmalı zikrlərdə səsini o qədər ucaltsın ki, hamı eşitsin. Amma həddindən artıq

uca olmamalıdır.

Məsələ: 1507.Əgər imam rükuda olanda, təzə gələnlərin ona iqtida etmək istədiklərini başa düşsə, müstəhəbdir ki, rükunu həmişəkindən ikiqat artırıb sonra hətta bundan sonra iqtida etmək üçün başqalarının da gəldiyini bilsə-qalxsın.

### *CAMAAT NAMAZINDA MƏKRUH OLAN ŞEYLƏR*

Məsələ:1508.Əgər camaat namazının cərgələrində yer olsa insan təklikdə dayanması məkruhdur.

Məsələ:1509.Məkruhdur ki, insan zikrləri, imamın eşidəcəyi tərzdə desin.

Məsələ:1510.Zöhr, əsr və işa namazlarını şikəstə (2 rəkət) qılan müsafirin, bu namazlarda müsafir olmayanlara, habelə, müsafir olmayan şəxsin bu namazlarda müsafir olana iqtida etməsi məkruhdur.

# *3-CÜ HİSSƏ*

# *CAMAAT NAMAZI HAQQINDA HƏDİSLƏR*

## *CAMAAT NAMAZI HAQQINDA HƏDİSLƏR*

عَنْ اَبِي جَعْفَرٍ Δ : قٰالَ: قٰالَ عَلِيٌّ -Δ-: مَنْ سَمِعَ النِّدٰاءَ فَلَمْ يُجِبْهُ مِنْ غَيْرِ عِلَّةٍ فَلاٰ صَلاٰةَ لَهُ ؛

İmam Baqir (ə), imam Əli (ə)-ın belə buyurduğunu nəql etmişdir: *"(Camaat namazının) azan səsini eşitdiyi halda, heç bir üzürlü səbəb olmadan cavab verməyən şəxsin namazı yoxdur (namazı qəbul deyildir)."*

*"Vəsailuş-şiə" /5/375.*

قٰالَ رَسُولُ اللهِ 3 : اِمٰامُ الْقَوْمِ وٰافِدُهُمْ فَقَدِّمُوا فِي صَلاٰتِكُمْ اَفْضَلَكُمْ ؛

Peyğəmbəri-Əkrəm (c) buyurmuşdur: *"Hər bir dəstənin camaat namazının imamı onların Allah dərgahındakı nümayəndəsidir. Belə isə, öz namazınızın imamı üçün ən yaxşılarınızı seçin."*

*"Biharul-ənvar" /88/109.*

قٰالَ رَسُولُ اللهِ 3: صَلاٰةُ الرَّجُلِ فِي جَمٰاعَةٍ خَيْرٌ مِنْ صَلاٰتِهِ فِي بَيْتِهِ اَرْبَعِينَ سَنَةً . قِيلَ: يٰا رَسُولَ اللهِ! صَلاٰة يَوْمٍ ؟ فَقٰالَ: صَلوٰةٌ وٰاحِدَةٌ ؛

Peyğəmbəri-Əkrəm (c) buyurmuşdur: *"İnsanın camaatla namaz qılması öz evində (tək-tənha) qıldığı qırx illik namazdan yaxşıdır. Allahın Rəsulundan "bir günün namazımı?" – deyə soruşulduqda, o həzrət buyurdu: "(Xeyr!) Yalnız bir*

*namaz. (Yə`ni camaatla qılınan bir namaz tək-tənha qılınan qırx illik namazdan fəzilətlidir.)"*

*"Vəsailuş-şiə" /5/374.*

قٰالَ رَسُولُ اللهِ 3 : يٰا اَيُّهٰا النّٰاسُ اَقِيمُوا صُفُوفَكُمْ وَ اَمْسِحُوا بِمَنٰاكِبِكُمْ لِئَلاٰ يَكُونَ فِيكُمْ خَلَلٌ ، وَ لاٰ تُخٰالِفُوا فَيُخٰالِفَ اللهُ بَيْنَ قُلُوبِكُمْ اَلاٰ وَ اِنِّي أَرٰاكُمْ مِنْ خَلْفِي ؛

Peyğəmbəri-Əkrəm (c) bir dəstə adama xitab edərək buyurmuşdur: *"Ey camaat! Camaat namazının cərgələrini nizama salın, aranızda fasilə və ayrılıq düşməsin deyə, çiyin-çiyinə durun. Səflərinizi pozmayın, (əks halda) Allah sizin qəlblərinizi bir-birindən uzaqlaşdırar. Agah olun ki, həqiqətən, mən sizi (camaat namazının səflərinin nizam-intizamlı olub-olmamasını) arxa tərəfimdən görürəm."*

*"Səvabul-ə`mal" /520.*

قٰالَ رَسُولُ اللهِ 3: لَاَنْ اُصَلِّيَ الصُّبْحَ فِي جَمٰاعَةٍ اَحَبُّ اِلَيَّ مِنْ اَنْ اُصَلِّيَ لَيْلَتِي حَتّٰي اُصْبِحَ؛

Peyğəmbəri-Əkrəm (c) buyurmuşdur: *"Mənim nəzərimdə sübh namazını camaatla qılmağım, gecəni sübhə qədər oyaq qalıb ibadətlə məşğul olmaqdan daha sevimlidir."*

*"Kənzül-ümmal", 8-ci cild, hədis: 22792.*

قٰالَ رَسُولُ اللهِ 3: مَنْ صَلّٰي خَلْفَ عٰالِمٍ فَكَاَنَّمٰا صَلّٰي خَلْفَ رَسُولِ اللهِ ؛

Peyğəmbəri-Əkrəm (c) buyurmuşdur: *"Hər kəs alimə iqtida edib namaz qılsa, sanki Allahın*

*Rəsuluna iqtida edib onun arxasında namaz qılmışdır."*

*"Çehel-hədis" /18.*

قَالَ اَبُو الْحَسَنِ مُوسَي بْنُ جَعْفَرٍ ∆: اِنَّ الصَّلٰوةَ فِي الصَّفِّ الْاَوَّلِ كَالْجِهَادِ فِي سَبِيلِ اللهِ عَزَّوَجَلَّ

İmam Kazim (ə) buyurmuşdur: *"Camaat namazının birinci cərgəsində namaz qılmaq Allah yolunda cihad etmək kimidir."*

*"Vəsailuş-şiə" /5/387.*

قَالَ الصَّادِقُ ∆ : هَمَّ رَسُولُ اللهِ -3- بِأَحْرَاقِ قَوْمٍ فِي مَنَازِلِهِمْ لاٰ يُصَلُّونَ بِالْجَمَاعَةِ ؛

İmam Sadiq (ə) buyurmuşdur: *"Peyğəmbəri-Əkrəm* (c) *öz evlərində namaz qılan və camaat namazında iştirak etməyən bir qəbilənin evlərini yandırmaq istəyirdi."*

*"Ləalil-əxbar" /4/205.*

قَالَ الرِّضَا ∆ : اَلصَّلاٰةُ فِي جَمَاعَةٍ اَفْضَلُ ؛

İmam Rza (ə) buyurmuşdur: *"Namazı camaatla qılmaq daha fəzilətlidir."*

*"Camiu əhadisiş-şiə" /4/450.*

قَالَ رَسُولُ اللهِ 3: اِذَا سُئِلْتَ عَمَّنْ لاٰ يَشْهَدُ الْجَمَاعَةَ فَقُلْ: لاٰ اَعْرِفُهُ ؛

Peyğəmbəri-Əkrəm (c) buyurmuşdur: *"Sizdən camaat namazında iştirak etməyən bir şəxs haqqında soruşsalar, deyin ki, onu tanımıram!"*

*"Biharul-ənvar" /88/5.*

عَـنِ الرِّضٰـا Δ : اِنَّمٰـا جُعِلَـتِ الْجَمٰاعَـةُ لِـئَلاٰ يَكُـونَ الْاِخْـلاٰصُ وَالتَّوْحِيدُ وَالْاِسْلاٰمُ وَالْعِبٰادَةُ لِلّٰـهِ اِلاّ ظٰاهِراً مَكْشُوفاً مَشْهُوراً؛

İmam Rza (ə) buyurmuşdur: *"Camaat namazı yalnız Allah üçün ixlasın, yeganəliyin, İslamın və ibadətin aşkar olması məqsədilə qərar verilmişdir."*

*"Vəsailuş-şiə" /5/372.*

عَـنْ اَبِـي الْحَسَـنِ Δ : اِنْتِظٰـارُ الصَّلٰـوةِ جَمٰاعَـةً مِـنْ جَمٰاعَـةٍ اِلَـيٰ جَمٰاعَةٍ كَفٰارَةُ كُلِّ ذَنْبٍ ؛

İmam Əli (ə) buyurmuşdur: *"Bir camaat namazından sonrakı camaat namazına qədər, namazı camaatla qılmaq üçün intizar çəkmək bütün günahların kəffarəsidir."*

*"Camiu əhadisiş-şiə" /6/388.*

قٰـالَ رَسُـولُ اللهِ 7 : لاٰ صَلٰـوةَ لِمَـنْ لَـمْ يُصَـلِّ فِـي الْمَسْـجِدِ مَـعَ الْمُسْلِمِينَ اِلاٰ مِنْ عِلَّةٍ ؛

Peyğəmbəri-Əkrəm (c) buyurmuşdur: *"Heç bir üzürlü səbəb olmadan namazını məsciddə müsəlmanlarla birlikdə qılmayan şəxsin namazı qəbul deyildir."*

*"Vəsailuş-şiə" /3/377.*

قٰالَ الصّٰـادِقُ Δ : مَنْ خَلَعَ جَمٰاعَةَ الْمُسْلِمِينَ قَدْرَ شِبْرٍ خَلَعَ رَقَبَةَ الْاِيمٰانِ مِنْ عُنُقِهِ؛

İmam Sadiq (ə) buyurmuşdur: *"Hər kəs müsəlmanların dəstəsindən bir qarış belə uzaqlaşsa, şübhəsiz ki, iman ipini boynundan çıxraraq kənara atmışdır."*

*"Biharul-ənvar" /88/13.*

قَالَ اَلْباقِرُ Δ :لاٰ صَلاٰةَ لِمَنْ لاٰ يَشْهَدُ الصَّلاٰةَ مِنْ جِيْرانِ الْمَسْجِدِ اِلاّٰ مَرِيضٌ اَوْ مَشْغُولٌ

İmam Baqir (ə) buyurmuşdur: *"Məscidin qonşusu olan şəxs xəstəliyi və üzürlü səbəbi olmadığı halda, camaat namazında iştirak etməsə, onun namazı kamil deyildir."*

*"Vəsailuş-şiə" /5/375.*

قَالَ رَسُولُ اللهِ 7 : اِذٰا سَمِعْتَ الْاَذٰانَ فَأْتِ وَلَوْ حَبْواً

Peyğəmbəri-Əkrəm (c) buyurmuşdur: *"Azan səsini eşitdikdə, sürünə-sürünə olsa belə, sür`ətlə məscidə get."*

*"Kənzül-ümmal" /7/548.*

قَالَ الْباقِرُ Δ :مَنْ تَرَكَ الْجَمٰاعَةَ رَغْبَةً عَنْهٰا وَ عَنْ جَمٰاعَةِ الْمُسْلِمينَ مِنْ غَيْرِ عِلَّةٍ فَلاٰ صَلاٰةَ لَهُ ؛

İmam Baqir (ə) buyurmuşdur: *"Hər kəs rəğbət-sizlik üzündən və üzürlü səbəbi olmadan müsəlmanların dəstəsi sayılan camaat namazını tərk etsə, onun namazı qəbul deyildir."*

*"Əmaliyi Şeyx Səduq" /290.*

قَالَ رَسُولُ اللهِ 7 : وَ مَنْ لَزِمَ جَمٰاعَةَ الْمُسْلِمِينَ حَرُمَتْ عَلَيْهِمْ غَيْبَتُهُ وَ ثَبَتَتْ عَدٰالَتُهُ ؛

Peyğəmbəri-Əkrəm (c) buyurmuşdur: *"Camaat namazına iltizamlı olan şəxsin qeybətini etmək müsəlmanlara haramdır və onun ədaləti sabitdir."*

*"Vəsailuş-şiə" /5/394.*

قَالَ رَسُولُ اللهِ 7: صَلاٰةُ الْجَمٰاعَةِ اَفْضَلُ مِنْ صَلاٰةِ الْفَرْدِ بِخَمْسٍ وَ عِشْرِينَ دَرَجَةً ؛

"Peyğəmbəri-Əkrəm (c) buyurmuşdur: *"Camaatla qılınan bir namaz fürada (tək-tənha) qılınan iyirmi beş namazdan üstün və fəzlətlidir."*

*"Vəsailuş-şiə" /5/374.*

قَالَ عَلِيٌّ Δ : اَفْضَلُ الصُّفُوفِ اَوَّلُهٰا وَ هُوَ صَفُّ الْمَلاٰئِكَةِ وَ اَفْضَلُ الْمُقَدَّمِ مَيٰامِنُ الْاِمٰامِ ؛

İmam Əli (ə) buyurmuşdur: *"Camaat namazının ən fəzilətli cərgəsi birinci cərgədir və o, mələklərin cərgəsidir. (Eləcə də) birinci cərgədə ən fəzilətli yer imamın sağ tərəfidir."*

*"Biharul-ənvar" /88/18.*

قَالَ رَسُولُ اللهِ 7: فَمٰا مِنْ مُؤْمِنٍ مَشىٰ اِلَي الْجَمٰاعَةِ اِلاّٰ خَفَّفَ اللهُ عَلَيْهِ اَهْوالَ يَوْمِ الْقِيٰامَةِ ، ثُمَّ يَأْمُرُ اِلَي الْجَنَّةِ ؛

Peyğəmbəri-Əkrəm (c) buyurmuşdur: *"Camaat namazı qılmaq üçün qədəm götürən elə bir mö`min yoxdur ki, Allah-taala qiyamət gününün qorxusunu onun üçün yüngül tutmasın və sonra behiştə daxil olmağa əmr etməsin."*

*"Vəsailuş-şiə" /5/372.*

# *4-CÜ HİSSƏ*

# *DUALAR*

## *GÜNDƏLİK NAMAZLARIN MÜŞTƏRƏK TƏ`QİBATI*

**Mərhum Şeyx Tusinin "Misbah" kitabında və sair kitablarda deyilir: Hər namazın salamından sonra üç dəfə "Allahu əkbər" de, hər dəfəsində də əllərini qulaqlarının bərabərinə qədər qaldır, sonra isə bu duanı oxu:**

La ilahə illəllahu ilahən vahidən və nəhnu ləhu muslimun, la ilahə illəllahu və la nə`budu illa iyyah, muxlisinə ləhuddinə və ləv kərihəl-muşrikun, la

ilahə illəllahu rəbbuna və rəbbu abainəl-əvvəlin, la ilahə illəllahu vəhdəhu vəhdəhu vəhdəh, əncəzə və`dəhu və nəsərə əbdəhu və əəzzə cundəh, və həzəməl-əhzabə vəhdəh, fələhul-mulku və ləhul-həmd, yuhyi və yumitu və yumitu və yuhyi, və huvə həyyun la yəmutu biyədihil-xəyr, və huvə əla kulli şəy`in qədir. (**Sonra de:)** Əstəğfirullahəlləzi la ilahə illa huvəl-həyyul-qəyyumu və ətubu iləyh. (**Sonra de:)** Əllahumməhdini min indik, və əfiz ələyyə min fəzlik, vənşur ələyyə min rəhmətik, və ənzil ələyyə min bərəkatik. Subhanəkə la ilahə illa ənt, iğfir li zunubi kulləha cəmia, fəinnəhu la yəğfiruz-zunubə kulləha cəmiən illa ənt. Əllahummə inni əs`əlukə min kulli xəyrin əhatə bihi ilmuk, və əuzu bikə min kulli şərrin əhatə bihi ilmuk. Əllahummə inni əs`əlukə afiyətəkə fi umuri kulliha, və əuzu bikə min xizyid-dunya və əzabil-axirəh, və əuzu bivəchikəl-kərimi və izzətikəlləti la turam, və qudrətikəlləti la yəmtəniu minha şəy`, min şərrid-dunya vəl-axirəh, və min şərril-əvcai kulliha və min şərri kulli dabbətin əntə axizun binasiyətiha, innə Rəbbi əla siratin mustəqim, və la həvlə və la quvvətə illa billahil-əliyyil-əzim, təvəkkəltu ələl-həyyil-ləzi la yəmut, vəl-həmdu lillahilləzi ləm yəttəxiz vələdən və ləm yəkun ləhu şərikun fil-mulk, və ləm yəkun ləhu vəliyyun minəz-zulli və kəbbirhu təkbira. (**Sonra Həzrəti Zəhra**

**(əleyha salam)-ın zikrini deyib, yerindən hərəkət etməmiş on dəfə de:)** Əşhədu ən la ilahə illəllah, vəhdəhu la şərikə ləh, ilahən vahidən əhədən fərdən səməda, ləm yəttəxiz sahibətən və la vələda.

**Sonra "Həmda" surəsini, "Ayətəl-kürsi"ni, "Şəhidəllah" ayəsini. ("Ali-İmran" surəsinin 18-ci ayəsi), "Qulillahummə malikəl-mulk" ayəsini. ("Ali-İmran" surəsinin 26-cı ayəsi) oxu, sonra de:)** İlahi hazihi səlati səlləytuha la lihacətin minkə iləyha, və la rəğbətin minkə fiha, illa tə`zimən və taətən və icabətən ləkə ila ma əmərtəni bih. İlahi in kanə fiha xələlun əv nəqsun min rukuiha əv sucudiha fəla tuaxizni və təfəzzəl ələyyə bil-qəbuli vəl-ğufran.

**Şeyx Kəf`əmi buyurmuşdur ki, hər namazdan sonra de:**

Rəziytu billahi rəbbən və bil-islami dinən və biMuhəmmədin səlləllahu ələyhi və alihi nəbiyyən və biƏliyyin imamən və bil-Həsəni vəl-Husəyni və Əliyyin və Muhəmmədin və Cə`fərin və Musa və Əliyyin və Muhəmmədin və Əliyyin vəl-Həsəni vəl-Xələfis-Salihi ələyhimus-səlam, əimmətən və sadətən və qadətən bihim ətəvəlla və min ə`daihim ətəbərrəu. **(sonra üç dəfə de:)** Əllahummə inni əs`ələkəl-əfvə vəl-afiyətə vəl-muafatə fid-dunya vəl-axirəh.

## ***SÜBH NAMAZININ TƏ`QİBATI***

Əllahummə səlli əla Muhəmmədin və Ali-Muhəmməd, vəhdini liməxtulifə fihi minəl-həqqi biiznik, innəkə təhdi mən təşau ila siratin mustəqim. (**sonra on dəfə de:**) Əllahummə səlli əla Muhəmmədin və Ali-Muhəmməd, əl-əvsiyair-razinəl-mərziyyin, biəfzəli sələvatikə və barik ələyhim biəfzəli bərəkatik, vəs-səlamu ələyhim və əla ərvahihim və əcsadihim, və rəhmətullahi və bərəkatuh. Əllahummə əhyini əla ma əhyəytə ələyhi Əliyyəbnə Əbi Talibin və əmitni əla ma matə ələyhi Əliyyubnu Əbi Talib. (**sonra yüz dəfə de:**) Əstəğfirullahə və ətubu iləyh. (**yüz dəfə de:**) Əs`əlullahəl-afiyəh. (**yüz dəfə de:**) Əstəciru billahi minən-nar. (**yüz dəfə de:**) Və əs`əluhul-cənnəh. (**yüz dəfə de:**) Əs`əlullahəl-hurəl-iyn. (**yüz dəfə de:**) La ilahə illəllahul-məlikul-həqqul-mubin. (**yüz dəfə təvhid kəlməsini və yüz dəfə bunu de:**) Səlləllahu əla Muhəmmədin və Ali-Muhəmməd. (**yüz dəfə de:**) Subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər, və la həvlə və la quvvətə illa billahil-əliyyil-əzim. **(sonra de:)** Əsbəhtul-lahummə mu`tə-simən bizimamikəl-məniil-ləzi la yutavəlu və la yuhavəlu min şərri kulli ğaşimin və tariqin min sairi mən xələqtə və ma xələqtə min xəlqikəs-samiti vən-natiqi fi cunnətin min kulli mfin bilibasin sabiğətin vəlai Əhli bəyti Nəbiyyikə muhtəcibən min kulli

qasidin li ila əziyyətin bicidarin həsin, əl-ixlasi fil-i`tirafi bihəqqihim vət-təməssuki bihəblihim, muqinən ənnəl-həqqə ləhum və məəhum və fihim və bihim uvali mən valəv və ucanibu mən canəbu, fəəiznillahummə bihim min şərri kulli ma əttəqih, ya əzimu həcəztul-əadiyə ənni bibədiis-səmavati vəl-ərz, inna cəəlna min bəyni əydihim səddən və min xəlfihim səddən fəəğşəynahum fəhum la yubsirun.

## *ZÖHR NAMAZININ TƏ`QİBATI*

La ilahə illəllahul-əzimul-həlim, la ilahə illəllahu Rəbbul-ərşil-kərim, əlhəmdu lillahi Rəbbil-aləmin. Əllahummə inni əs`ələkə mucibati rəhmətik, və əzaimə məğfirətik, vəl-ğənimətə min kulli birr, vəs-sələmətə min kulli ism. Əllahummə la tədə` li zənbən illa ğəfərtəh, və la həmmən illa fərrəctəh, və la suqmən illa şəfəytəh, və la əybən illa sətərtəh, və la rizqən illa bəsəttəh, və la xəvfən illa aməntəh, və la suən illa sərəftəh, və la hacətən hiyə ləkə rizən və liyə fiha səlahun illa qəzəytəha, ya ərhəmər-rahimin, aminə rəbbəl-aləmin. **(sonra on dəfə de:)** Billahi`təsəmtu və billahi əsiqu və ələllahi təvəkkəlt. Əllahummə in əzumət zunubi fəəntə ə`zəm, və in kəburə təfriti fəəntə əkbər, və in damə buxli fəəntə əcvəd. (**sonra de:)** Əllahumməğfir li əzimə zunubi biəzimi əfvik, və kəsirə təfriti bizahiri kərəmik,

vəqmə` buxli bifəzli cudik. Əllahummə ma bina min ni`mətin fəmink, la ilahə illa ənt, əstəğfirukə və ətubu iləyk.

## *ƏSR NAMAZININ TƏ`QİBATI*

Əstəğfirullahəlləzi la ilahə illa hu, əl-həyyul-qəyyum, ərrəhmanur-rəhim, zul-cəlali vəl-ikram, və əs`əluhu ən yətubə ələyyə təvbətə əbdin zəlil, xaziin fəqir, baisin miskin, mustəkinin mustəcir, la yəmliku linəfsihi nəf`ən və la zərrən və la məvtən və la həyatən və la nuşura. Əllahummə inni əuzu bikə min nəfsin la təşbə`, və min qəlbin la yəxşə`, və min ilmin la yənfə`, və min səlatin la turfə`, və min duain la yusmə`. Əllahummə inni əs`əlukəl-yusrə bə`dəl-usr, vəl-fərəcə bə`dəl-kərb, vər-rəxaə bə`dəş-şiddəh. Əllahummə ma bina min ni`mətin fəmink, la ilahə illa ənt, əstəğfirukə və ətubu iləyk.

## *MƏĞRİB (ŞAM) NAMAZININ TƏ`QİBATI*

**Həzrəti Zəhra (əleyha salam)-ın zikrindən sonra de:** İnnəllahə və məlaikətəhu yusəllunə ələn-Nəbiyy, ya əyyuhəlləzinə am səllu ələyhi və səllimu təslima. Əllahummə səlli əla Muhəmmədininnəbiyy, və əla zurriyyətihi və əla Əhli-bəytih. (**sonra yeddi dəfə de:)** Bismillahir-rəhmanir-rəhim, və la həvlə və la quvvətə illa billahil- əliyyil-əzim. (**üç dəfə**

**de:)** Əl-həmdu lillahilləzi̲ yəf`əlu ma yəşa`, və la yəf`əlu ma yəşa`u ğəyruh. (**sonra de:)** Subhanəkə la ilahə illa ənt, iğfir li̲ zunu̲bi̲ kulləha cəmi̲a, fəinnəhu la yəğfiruz-zunu̲bə kulləha cəmi̲ən illa ənt.

**(Nafiləni qılıb qurtarandan sonra on dəfə de:)** Ma şaəllahu la quvvətə illa billah, əstəğfirullah. (**sonra de:)** Əllahummə inni̲ əs`alukə mu̲cibati rəhmətik, və əzaimə məğfirətik, vən-nəcatə minən-nari və min kulli bəliyyəh, vəl-fəvzə bil-cənnəti vər-rizvani fi̲ daris-səlami və civarə Nəbiyyikə Muhəmmədin ələyhi və alihis-səlam. Əllahummə ma bina min ni`mətin fəmink, la ilahə illa ənt, əstəğfirukə və ətu̲bu iləyk.

**Məğrib və işa namazları arasında "Ğüfeylə" namazı qılınır. Onun birinci rəkətində Həmddən sonra aşağıdakı ayə oxunur:** Və zənnu̲ni iz zəhəbə muğazibən fəzənnə ən lən nəqdirə ələyh, fda fiz-zulumati ən la ilahə illa ənt, subhanəkə inni̲ kuntu minəz-zalimi̲n, fəstəcəbna ləhu və nəccəynahu minəl-ğəmmi və kəzalikə nuncil-mu`mini̲n. **İkinci rəkətində isə Həmddən sonra aşağıdakı ayə oxunur:** Və indəhu məfatihul-ğəybi la yə`ləmuha illa hu, və yə`ləmu ma fil-bərri vəl-bəhri və ma təsqutu min vərəqətin illa yə`ləmuha, və la həbbətin fi̲ zulumatil-ərzi və la rətbin və la yabisin illa fi̲ kitabin mubi̲n. **Qunutda isə bu dua oxunur:** Əllahummə

inni əs`ələkə bimətafihil-ğəybil-ləti la yə`ləmuha illa ənt, ən tusəlliyə əla Muhəmmədin və ali-Muhəmməd, və ən təf`ələ bi kəza və kəza. (**"kəza və kəza" kəlmələrinin yerinə öz istək və hacətlərini diləyib sonra bu duanı oxuyursan:)** Əllahummə əntə vəliyyu ni`məti vəl-qadiru əla təlibəti, tə`ləmu hacəti fəəs`ələkə bihəqqi Muhəmmədin və Ali-Muhəmməd, ələyhi və ələyhimus-səlam, ləmma fəzəytəha li

**Rəvayət olunmuşdur ki, hər kəs bu namazı qılsa və öz hacətlərini diləsə, Allah ona, istədiyi şeyləri əta edəcəkdir.**

## *İŞA NAMAZININ TƏ`QİBATI*

Əllahummə innəhu ləysə li ilmun biməvzii rizqi, və innəma ətlubuhu bixətəratin təxturu əla qəlbi, fəəculu fi tələbihil-buldan, fəənə fima ənə talibun kəl-həyran, la ədri əfi səhlin huvə əm fi cəbəl, əm fi ərzin əm fi səma`, əm fi bərrin əm fi bəhr, və əla yədəy mən və min qibəli mən, və qəd əlimtu ənnə ilməhu indəkə və əsbabəhu biyədik, və əntəlləzi təqsimuhu bilutfikə və tusəbbibuhu birəhmətik. Əllahummə fəsəlli əla Muhəmmədin və alih, vəc`əl ya Rəbbi rizqəkə li vasiən və mətləbəhu səhla, və mə`xəzəhu qəriba, və la tuənnini bitələbi ma ləm tuqəddir li fihi rizqa, fəinnəkə ğəniyyun ən əzabi və ənə fəqirun ila rəhmətik, fəsəlli əla Muhəmmədin və alih,

və cud əla əbdikə bifəzlik, innəkə zu fəzlin əzim.

**Müəllif deyir: Bu dua "ruzi istəmə" dualarındandır. Həmçinin müstəhəbdir ki, işa namazından sonra yeddi dəfə "İnna ənzəlnah" surəsi oxunsun. İşanın nafiləsi iki rəkət vüteyrə namzıdır ki, oturan halda qılınır. Həmçinin işa namazından sonra Qur`andan yüz ayə oxumaq müstəhəbdir.**

## *AYƏTÜL-KÜRSÜ*

*Bismillahir-rəhmanir-rəhim*

Əllahu la ilahə illa huvəl-həyyul-qəyyum, la tə`xuzuhu sinətun və la nəvm, ləhu ma fis-səmavati və ma fil-ərz, mən zəl-ləzi yəşfə`u indəhu illa bi-iznihi, yə`ləmu ma bəynə əydihim və ma xəlfəhum, və la yuhitunə bişəy`in min ilmihi illa bima

şaə, vəsiə kursiyyuhus-səmavati vəl-ərz, və la yəuduhu hifzuhuma, və huvəl-Əliyyul-Əzim. La ikrahə fid-dini qəd təbəyyənər-ruşdu minəl-ğəyy, fəmən yəkfur bit-tağuti və yu`min billahi fəqədis-təmsəkə bil-urvətil-vusqa, lən-fisamə ləha, vəllahu Səmiun Əlim. Əllahu vəliyyul-ləzinə amənu yuxricuhum minəz-zulumati ilən-nur, vəlləzinə kəfəru əvliyauhumut-tağutu yuxricunəhum minən-nuri iləz-zulumat, ulaikə əshabun-nari hum fiha xalidun.

## *ƏHD DUASI*

Əllahummə Rəbbən-nu̱ril-əzi̱m, və Rəbbəl-kursiyyir-rəfi̱`, və Rəbbəl-bəhril-məscu̱r, və munzilət-tovrati vəl-inci̱li vəz-zəbu̱r, və Rəbbəz-zilli vəl-həru̱r, və munziləl-Qur`anil-əzi̱m, və Rəbbəl-məlaikətil-muqərrəbi̱n, vəl-ənbiyai vəl-mursəli̱n. Allahummə inni̱ əs`əlukə bivəchikəl-kəri̱m, və binuri vəchikəl-muni̱r, və mulkikəl-

qədim, ya Həyyu ya Qəyyum, əs`əlukə bismikəl-ləzi əşrəqət bihis-səmavatu vəl-ərəzun, və bismikəl-ləzi yəsləhu bihil-əvvəlunə vəl-axirun, ya həyyən qəblə kulli həyy, və ya həyyən bə`də kulli həyy, və ya həyyən hinə la həyy, ya muhyiyəl-məvta və mumitəl-əhya, ya həyyu la ilahə illa ənt. Allahummə bəlliğ movlanəl-imaməl-Hadiyəl-Məh-diyyəl-Qaimə bi əmrik, sələvatullahi ələyhi və əla abaihit-tahirin, ən cəmiil-mu`mininə vəl-mu`minat, fi məşariqil-ərzi və məğaribiha, səhliha və cəbəliha və bərriha və bəhriha və ənni və ən validəyyə minəs-sələvati zinətə ərşillah, və midadə kəlimatihi və ma əhsahu ilmuh, və əhatə bihi kitabuh. Allahummə inni ucəddidu ləhu fi səbihəti yəvmi haza və ma iştu min əyyami əhdən və əqdən və bəy`ətən ləhu fi unuqi, la əhulu ənha və la əzulu əbəda. Allahumməcə`lni min ənsarihi və ə`vanih, vəz-zabbinə ənhu vəl-musariinə iləyhi fi qəzai həvaicih, vəl-mumtəsilinə li əvamirih, vəl-muhaminə ənh, vəs-sabiqinə ila iradətih, vəl-mus-təşhədinə bəynə yədəyh. Allahummə in halə bəyni və bəynəhul-movtul-ləzi cəəltəhu əla ibadikə hətmən məqziyya, fəəxricni min qəbri mu`təzirən kəfəni, şahirən səyfi, mucərridən qənati, muləbbiyən də`vətəd-dai` fil-haziri vəl-badi. Əllahummə ərinit-təl`ətər-rəşidətə vəl-ğurrətəl-

həmidəh, vəkhul naziri bi nəzrətin minni iləyh, və əccil fərəcəhu və səhhil məxrəcəh, və əvsi` mən-həcəhu vəsluk bi məhəccətəh, və ənfiz əmrəhu vəş-dud əzrəh, və`murillahummə bihi biladəkə və əhyi bihi ibadək, fə innəkə qultə və qovlukəl-həqq. Zəhərəl-fəsadu fil-bərri vəl-bəhri bima kəsəbət əddin-nas- fəəzhirillahummə lənə vəliyyəkə vəbnə binti Nəbiyyik, əl-musəmma bismi Rəsulikə hətta la yəzfərə bişəy`in minəl-batili illa məzzəqəhu və yuhiqqəl-həqqə və yuhəqqiqəh, vəc`əlhullahummə məfzəən liməzlumi ibadik, və nasirən limən la yəcidu ləhu nasirən ğəyrək, və mucəddidən lima ut-tilə min əhkami kitabik, və muşəyyidən lima vərədə min ə`lami dinikə və sunəni Nəbiyyik, səlləllahu ələyhi və alih, vəc`əlhullahummə mimmən həssəntəhu min bə`sil-mu`tədin. Əllahummə və surrə Nəbiyyəkə Muhəmmədən səlləllahu ələyhi və alih, bi ru`yətihi və mən təbiəhu əla də`vətih, vərhəmistikanət bə`dəh. Əllahumməkşif hazihil-ğummətə ən hazihil-umməti bi huzurih, və əccil lənə zuhurəh, "innəhum yərəvnəhu bəidən və nərahu qəriba", birəhmətikə ya ərhəmər-rahimin. (sonra 3 dəfə əlini sağ buduna vurub hər dəfəsində bu sözləri de…) Əl-əcəl, əl-əcəl, ya movlayə, ya Sahibəz-zəman. Əl-əcəl, əl-əcəl ya movlayə, ya Sahibəzzaman, Əl-əcəl, əl-əcəl ya movlayə, ya

Sahibəzzaman.

## *FƏRƏC DUASI (HƏBSDƏN XİLAS OLMAQ ÜÇÜN DUA)*

**Şeyx Kəf`əmi "Bəll-əmin" kitabında İmam Zaman (ə)-ın duasını nəql etmişdir. Belə ki, həzrət onu həbsdə olan bir şəxsə öyrətmiş və onu oxuyaraq həbsdən xilas olmuşdur. O dua belədir:**
İlahi, əzuməl-bəla`, və bərihəl-xəfa`, vənkəşəfəl-ğita`, vənqətəər-rəca`, və zaqətil-ərzu və muniətis-səma`, və əntəl-mustəanu və iləykəl-muştəka, və ələykəl-muəvvəlu fiş-şiddəti vər-rəxa. Əllahummə səlli əla Muhəmmədin və Ali-Muhəmməd, ulil-əmril-ləzinə fərəztə ələyna taətəhum və ərrəft bizalikə mənzilətəhum, fəfərric ənna bihəqqihim fərəcən acila, qəribən kələmhil-bəsəri əv huvə əqrəb, ya Muhəmmədu ya Əliyy, ya Əliyyu ya Muhəmməd, ikfiyani fəinnəkuma kafiyan, vənsurani fəinnəkuma nasiran, ya Məvlana ya Sahibəz-zəman, əl-ğəvs, əl-ğəvs, əl-ğəvs, ədrikni ədrikni ədrikni, əs-saət, əs-saət, əs-səaəh, əl-əcəl, əl-əcəl, əl-əcəl, ya ərhəmər-rahimin, bihəqqi Muhəmmədin və alihit-tahirin.

## *FƏRƏC DUASI*

Allahummə kun li vəlliyyikəl-Huccətibnil-Həsən, salavatukə ələyhi və əla abaih, fi hazihs-saə və

fi kulli saə, vəlliyyən və hafizən və qaidən və nasira, və dəlilən və əyna  hətta tuskinəhu ərzəkə təvən və tummәttiəhu fiha təvila, birəhmətikə yə ərhəmər - Rahimin!

*MÜNDƏRİCAT*

***1-Cİ HİSSƏ............................................3***
***CAMAAT NAMAZININ FƏZİLƏT VƏ SAVABI.................................................3***
**I-ci FƏSİL**
***CAMAAT NAMAZI İLAHİ KƏLAMDA . 4***
***II-ci FƏSİL***
***CAMAAT NAMAZININ ƏHƏMİYYƏTİ 7***
***CAMAAT NAMAZININ FƏLSƏFƏSİ.. 11***
***III-cü FƏSİL***
***CAMAAT NAMAZININ SAVABI ......... 12***
***IV-cü FƏSİL***
***SÜBH VƏ İŞA CAMAAT NAMAZLARI ........................................................... 17***
***V-ci FƏSİL***

*CAMAAT NAMAZININ ƏSƏRLƏRİ.... 19*
*VI-cı FƏSİL*
*CAMAAT NAMAZI MƏSCİDDƏ.......... 25*
*VII- FƏSİL*
*CAMAAT NAMAZININ CƏRGƏSİ...... 27*
*VIII-ci FƏSİL*
*İMAM CAMAATIN ŞƏRAİTİ............... 31*
*IX-cu FƏSİL*
*CAMAAT NAMAZININ TƏRK ETMƏYİN ZƏRƏRLƏRİ....................... 35*
*2-Cİ HİSSƏ*
*CAMAAT NAMAZININ ƏHKAMI........ 42*
*CAMAAT NAMAZININ ƏHKAMI........ 43*
*PİŞNAMAZIN ŞƏRTLƏRİ.................... 55*
*CAMAAT NAMAZININ HÖKMLƏRİ .. 57*
*CAMAAT NAMAZINDA MÜSTƏHƏB OLAN ŞEYLƏR...................................... 61*
*CAMAAT NAMAZINDA MƏKRUH OLAN ŞEYLƏR...................................... 63*
*3-CÜ HİSSƏ*
*CAMAAT NAMAZI HAQQINDA HƏDİSLƏR............................................ 64*

*CAMAAT NAMAZI HAQQINDA HƏDİSLƏR*............................................ *65*
*4-CÜ HİSSƏ*
*DUALAR*.................................................. *72*
*GÜNDƏLİK NAMAZLARIN MÜŞTƏRƏK TƏ`QİBATI*....................... *72*
*SÜBH NAMAZININ TƏ`QİBATI*......... *74*
*ZÖHR NAMAZININ TƏ`QİBATI*......... *76*
*ƏSR NAMAZININ TƏ`QİBATI*........... *77*
*MƏĞRİB (ŞAM) NAMAZININ TƏ`QİBATI*............................................ *77*
*İŞA NAMAZININ TƏ`QİBATI*............. *79*
*AYƏTÜL-KÜRSÜ*................................... *80*
*ƏHD DUASI*........................................... *81*
*FƏRƏC DUASI (HƏBSDƏN XİLAS OLMAQ ÜÇÜN DUA)*............................ *84*
*FƏRƏC DUASI*...................................... *84*
*MÜNDƏRİCAT*...................................... *85*

.........................................................................................